27 aprel 2018-ci il
№15 (8781)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı

## Bu sayımızda

**ADU Türk Universitetlər Birliyinə üzv olub**
⇨səh.3

**“Gələcəyini Qur” Gəncliyə Dəstək Layihəsinə start verilib**
⇨səh.4

**“Özünü inkişaf etdirmə müəllim peşəsini seçənlərin əsas hədəflərindən biri olmalıdır”**
⇨səh.6

**İnsanların sevimli mahnıları onların DNT-nə yazılacaq**
⇨səh.7

# “Gəlin birgə oxuyaq!”

## “Oxu Günü” növbəti dəfə kitabsevərləri bir araya gətirdi



Bir-birindən maraqlı layihələrin, müxtəlif tədbirlərin keçirilmə məkanına çevrilən Heydər Əliyev Mərkəzinin parkında bu dəfə kitabsevərlər bir araya gəldi. Aprelin 26-da Heydər Əliyev Mərkəzi, Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyasının təşkilatçılığı və “Hədəf Nəşrləri”nin tərəfdaşlığı ilə “Gəlin birgə oxuyaq!” şüarı altında reallaşdırılan “Oxu Günü”nü sözün həqiqi mənasında, bir kitab bayramı adlandırmaq olardı.

Parkda paytaxtın 40-dan artıq ümumtəhsil müəssisəsinin hazırladığı guşələr, şagirdlərin maraqlı təqdimatları onların həmin günə necə mükəmməl hazırlaşmalarından soraq verirdi.

Bu günün özəl qonaqları isə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, təhsil nazirinin müavini Firudin Qurbanov, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Məhəbbət Vəliyeva, AMEA-nın, Mədəniyyət Nazirliyinin nümayəndələri, respublikanın tanınmış elm adamları, təhsil ekspertləri idilər.

Qonaqlar şagirdlərin Azərbaycan, eləcə də xarici ölkələrin tanınmış yazıçı və şairlərinin əsərləri əsasında hazırladıqları səhnəciklərə, bir-birindən maraqlı çıxışlarına tamaşa edirdilər.

⇨Ardı səh.4

# 763 müəllim müsahibə mərhələsində

## Nəticələr gələn həftə elan olunacaq

Müddətsiz əmək müqaviləsi əsasında işə qəbul olunmaq istəyən müəllimlər dünəndən başlayaraq müsahibələrə cəlb edilib. Bu gün də davam edəcək prosesdə 763 nəfər iştirak edir.

Müsahibələr Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunun (TİPİİ) nəzdində fəaliyyət göstərən İnsan Resursları Mərkəzi tərəfindən keçirilir. Prosesə 2016-2017-ci və 2017-2018-ci tədris illəri üçün keçirilmiş müəllimlərin işə qəbulu müsabiqəsində iştirak edərək zəruri keçid balını toplayan və vakant yerlərdə mövcud qaydalar çərçivəsində müddətli əmək müqaviləsi ilə işə qəbul edilən müəllimlər qatılırlar.

Müsahibənin təşkil olunduğu Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutunda həyəcanlı bir gün başlayıb. Namizədlər əvvəlcə qeydiyyatdan keçir, sonra sənədləri yoxlanılır və nəhayət, müsahibələrin keçirildiyi zala daxil olur. Əksəriyyəti dəvət olunduqları saatda gəlməyib. Biri gecikib, biri tələsib. Ancaq bu, təşkilatçıları narahat etmir. 20 komissiya iş başındadır. Hər komissiyanın tərkibində aparıcı təhsil müəssisələrindən birinin direktoru, bir fənn müəllimi və Təhsil Nazirliyinin nümayəndəsi təmsil olunur. Gecikəni də, tələsəni də gözlətmirlər. Namizədlərə həyəcanlanıb stress keçirməyə imkan vermədən, operativ şəkildə komissiyaların qarşısına ötürürlər. Burada da vəziyyət yaxşı görünür. Hamı gülümsünür. Hətta namizədlə qızğın müzakirəyə dalan komissiya üzvləri belə var. Görünür, namizəd ürəklərincə olub.

Komissiya üzvlərindən ayrılan namizədlər istər-istəməz gəldikləri səmtə yönəlir. Onları doğru istiqamətləndirmək üçün qapıda gözləyən TİPİİ əməkdaşları namizədlərə yolu göstərir. Arada “Mən bu tərəfdən gəlmişdim” deyib göstərilən yolun doğru olduğuna şübhə edənlərə də rast gəlinir. Ancaq gəldiyi yolla gedə bilməyəcəyini, qarşısında yeni yol olduğunu anlayanlar daha çoxdur.

### Qeydiyyatdan keçənlərin hər biri məlumatlandırılacaq

Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdir müavini Eşqi Bağırov “Azərbaycan müəllimi”nə açıqlamasında bildirib ki, 2017-ci ildə müəllimlərin işə qəbulu ilə bağlı test imtahanı mərhələsində müvafiq keçid balı toplayan, lakin vakant yerə qəbul ola bilməyən müəllimlər bu tədris ili ərzində yeni yaranan, yaxud müsabiqədə tutulmayan vakant yerlərə müddətli əmək müqaviləsi ilə işə cəlb olunublar.

⇨Ardı səh.5

# İnklüziv təhsilin Qərb təcrübəsi

Fiziki məhdudiyyətləri olan şəxslərin təhsil imkanlarının genişləndirilməsi üçün normativ aktların işlənilməsi və tətbiqinə ötən əsrin 70-ci illərindən başlanılıb. ABŞ-ın və Avropa ölkələrinin müasir təhsil siyasətlərində problemə bir neçə yanaşma mövcuddur: təhsil imkanlarının genişləndirilməsi, meynstriminq, inteqrasiya və inklüziv. Meynstriminq yanaşmaya görə, fiziki məhdudiyyətləri olan uşaqlar həmyaşıdları ilə müxtəlif bayram tədbirlərində və şənliklərdə ünsiyyətdə olurlar. İnteqrasiyalı yanaşmaya əsasən, məhdudiyyətli uşaqların tələbatları dəyişməz qalan təhsil proqramına uyğunlaşdırılır. İnklüziv yanaşma isə özündə məktəblər və təhsil ocaqlarının elə yenidən planlaşdırılmasını ehtiva edir ki, istisnasız olaraq bütün uşaqların ehtiyaclarına cavab versin.

1990-cı illərdə ABŞ-da və Avropada fiziki məhdudiyyətli uşaqların valideynlərinin təşkilatlanması, fiziki məhdudiyyətli vətəndaşların və onların müdafiəçilərinin ictimai fəallığı barədə bir sıra məqalələr işıq üzü gördü. Bütün bunlar inklüziv təhsilin inkişafına təkan verdi. 1980-90-cı illərdə aparılmış inklüziv təhsilin iqtisadi səmərəliliyinə dair araşdırmalar inteqrasiyalı təhsilin nailiyyət, qazanc və xeyir amilləri baxımından rentabelli yol olduğunu göstərdi. Hazırda Qərb dövlətlərinin əksəriyyətində məhdud imkanlı uşaqların təhsil haqqı və imkanlarına dair ümumi yanaşma formalaşıb və tətbiq olunmaqdadır. Bu istiqamətdə dövlət və bələdiyyə məktəbləri inklüziv təhsil üçün büdcədən maliyyələşdirilirlər. 13 dekabr 2006-cı ildə BMT-nin Baş Assambleyası “Əlillərin hüquqları barədə” konvensiya qəbul edib ki, bu sənəddə inklüziv təhsil də öz əksini tapıb.

ABŞ-ın müasir təhsil sistemi kütləvi və xüsusi təhsilin sıx birliyini nəzərdə tutur. Bu xəttə münasibətdə üç yanaşma mövcuddur: “Əsas istiqamət”, “Kütləvi təhsil təşəbbüsü” və “Daxilolma”. “Əsas istiqamət”ə görə, məhdudiyyəti olan uşaqlar kütləvi məktəblərin siniflərinə yerləşdirilir. Məntiq budur: əvvəl-axır bu uşaqlar böyüyüb cəmiyyətə inteqrasiya olunacaqlar. Bu səbəbdən ümumi məktəblər vasitəsilə təhsil və ictimai fəallıqlarını artırsınlar.

“Turrion” elmi-praktiki psixoloji mərkəzin məlumatına görə, “Kütləvi təhsil təşəbbüsü” ABŞ-ın Təhsil Departamentinin xüsusi təhsil şöbəsi tərəfindən irəli sürülüb. Bu yanaşma birincidən daha da irəliyə gedərək məhdudiyyətli uşaqların təhsilində fundamental dəyişikliklər təklif edir. Bu yanaşma Amerika cəmiyyəti tərəfindən tam dəstəyə nail ola bilməyib. Bir sıra defektoloqlar və təhsil müəssisəsi direktorları hesab edirlər ki, bu istiqamətdə daha dərin araşdırmalara ehtiyac var.

“Daxilolma” modelinin tərəfdarlarına görə, belə uşaqlar yaşayış yerləri üzrə mövcud olan məktəblərə cəlb olunmalıdırlar. Belə uşaqların hər biri üçün xüsusi komanda tərəfindən proqramlar hazırlanır.

⇨Ardı səh.8




# “Biz əsl tamaşa hazırlığı mərhələsindən keçmişik”

*Könül Ələkbərova:* “Özümü peşəkar səhnədə oynamağa tam hazır hiss edirəm”

Səh.5

# “Ümumi təhsildə keyfiyyət ili”nin əsas tədbirləri

Paytaxt məktəblərində “Ümumi təhsildə keyfiyyət ili” çərçivəsində silsilə tədbirlər keçirilir.

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki ümumi təhsil müəssisələrində “Ümumi təhsildə keyfiyyət ili” ilə əlaqədar konfrans, seminar, mühazirə, “dəyirmi masa”, “açıq dərs”, müsabiqə və yarışlar təşkil edilir. Həmçinin, məktəbdaxili monitorinqlər, dərs dinləmələri, təlimlər, əlavə məşğələlər, valideynlər üçün “Açıq qapı” günləri və digər tədbirlər keçirilir.

2017-2018-ci tədris ilinin “Ümumi təhsildə keyfiyyət ili” elan edilməsində əsas məqsəd ümumi təhsil sahəsində müasir dövrün tələblərinə uyğun şəkildə inkişafı şərtləndirən keyfiyyət dəyişikliklərinə nail olmaq, bu prosesdə ümumi təhsil müəssisələrini, məktəb pedaqoji kollektivlərini səfərbər və təhsildə keyfiyyəti təmin etməkdən ibarətdir.

Təhsil müəssisələrində təşkil olunan tədbirlərdə “Ümumi təhsildə keyfiyyət ili”nin məqsəd və mahiyyəti, bu istiqamətdə qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verilir. Eyni zamanda, təhsildə keyfiyyətin daha da artırılması sahəsində görülən işlərdən bəhs olunur, məktəbdaxili monitorinqlərin nəticələri təhlil edilir, müəllim və valideynlərin təklifləri dinlənilir, müvafiq müzakirələr aparılır.

Təhsil müəssisələrində “Ümumi təhsildə keyfiyyət ili” çərçivəsində təşkil olunan müsabiqə və yarışlarda, eləcə də tədrisdə fərqlənən şagirdlər mükafatlandırılır. Həmçinin, “Ümumi təhsildə keyfiyyət ili” ilə əlaqədar məktəblilər üçün tarixi məkanlara, ali təhsil ocaqlarına, istehsal müəssisələrinə və digər yerlərə ekskursiyalar təşkil olunur.

Qeyd edək ki, BŞTİ-nin Fəaliyyət Planına əsasən, “Ümumi təhsildə keyfiyyət ili” çərçivəsində məktəb rəhbərlərinin hesabatları əsasında müvafiq təkliflərin hazırlanması nəzərdə tutulur.

# Dərnək rəhbərləri və müəllimlər üçün təlimlər

“Təhsildə İnnovativ Texnologiyalar” (İTE) əlavə təhsil mərkəzi məktəbdənkənar təhsil müəssisələrinin dərnək rəhbərləri və müəllimləri üçün ixtisasartırma təlimləri keçirib.

Təlimlər “Tədris prosesində interaktiv texnologiyalardan və elektron məzmundan istifadə”, “Müasir tədris strategiyaları və layihə metodikasının istifadəsi” üzrə təşkil edilib.

Təlimlərin keçirilməsində əsas məqsəd dərnək rəhbərlərinə, müəllimlərə texnologiyanın tətbiqi və layihə üsulu vasitəsilə şagirdyönümlü təlimin təşkilinə dəstək olmaq, XXI əsr bacarıqlarının inkişafı üçün texnologiyanın təhsildə səmərəli istifadəsini aşılamaq, İKT alətlərindən məqsədyönlü istifadə üzrə praktik bacarıqlar formalaşdırmaqdır.

“Tədris prosesində interaktiv texnologiyalardan və elektron məzmundan istifadə” üzrə ixtisasartırma xidmətindən 156 nəfər müəllim və dərnək rəhbəri artıq təlimdən keçib. “Müasir tədris strategiyaları və layihə metodikasının istifadəsi” üzrə ixtisasartırma xidməti isə hazırda davam edir. Bu layihə çərçivəsində 150 nəfər heyətin təlimdə iştirakı gözlənilir.

## RƏSMİ XRONİKA



■ Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Meyin dəvəti ilə bu ölkəyə səfər edib. Həmin gün Prezident İlham Əliyev Londonda BP şirkətinin baş icraçı direktoru Robert Dadli, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Avropa və Amerika məsələləri üzrə dövlət naziri Alan Dunkan, Böyük Britaniyanın ticarət və ixracın təşviqi üzrə dövlət naziri, hökumətlərarası komissiyanın həmsədri Baronessa Rona Feyrhed ilə görüşüb. Dövlət başçısının habelə Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü, Azərbaycan ilə dostluq qrupunun sədri Bob Bləkmən, Lordlar Palatasının üzvü, Azərbaycanın Leyborist dostları qrupunun sədri Lord Devid Evans və İcmalar Palatasının üzvü, Şimali İrlandiya üzrə dövlət nazirinin müavini Devid Morris ilə birgə görüşü olub. Prezident İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri xanım Tereza Mey ilə görüşüb.

■ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 24-25 aprel tarixlərində Türkiyə Respublikasında rəsmi səfərdə olub. Səfər çərçivəsində Prezident İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub. Prezidentlərin iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib, dövlət başçıları iclasda çıxış ediblər. Hər iki ölkənin dövlət başçısının iştirakı ilə Azərbaycan-Türkiyə sənədləri imzalanıb. İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə də görüşüb.

■ Ölkə başçısı İlham Əliyev aprelin 24-də Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidmətinin direktoru Sergey Narışkini qəbul edib.

■ Aprelin 23-də Prezident İlham Əliyev Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.

■ Aprelin 23-də Prezident İlham Əliyev Ceyhun Əziz oğlu Bayramovun Azərbaycan Respublikası təhsil nazirinin müavini və Səfər Məmməd oğlu Mehdiyevin Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifələrindən azad edilmələri haqqında sərəncamlar imzalayıb.

■ Ölkə başçısı İlham Əliyev aprelin 23-də “Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamına əlavələr edilməsi barədə Sərəncam imzalayıb.

■ Prezident İlham Əliyev aprelin 21-də Sahil Rafiq oğlu Babayevin Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini, Hacıbala İbrahim oğlu Abutalıbovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı, Samir Rafiq oğlu Nuriyevin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri, İnam İmdad oğlu Kərimovun Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri vəzifələrindən azad edilmələri haqqında sərəncamlar imzalayıb.

■ Dövlət başçısı İlham Əliyev aprelin 21-də Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında Sərəncam imzalayıb.

■ Ölkə başçısı İlham Əliyev aprelin 21-də Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Prezident İlham Əliyevin həmin gün imzaladığı digər sərəncamla Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikasının Baş naziri təyin edilib.

■ Aprelin 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Metropoliteninin qatar parkının yenilənməsi məqsədilə paytaxta gətirilən yeni qatarlarda yaradılan şəraitlə tanış olub.

■ Aprelin 20-də dövlət başçısı İlham Əliyev Əli Şamil oğlu Həsənovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

## Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi”ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi”ni “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10 oktyabr tarixli 1633 nömrəli Fərmanına uyğunlaşdırmaq məqsədilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 710 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1464; 2016, № 11, maddə 1803; 2017, № 5, maddələr 791, 802, № 7, maddə 1369) ilə təsdiq edilmiş “Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsi”nin 5.20-ci bəndi aşağıdakı redaksiyada verilsin:

“5.20. Təhsilalanların attestasiyasının aparılması qaydasını Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən edir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 23 aprel 2018-ci il

# Təhsil naziri kollektivə təqdim olunub

Azərbaycan Respublikası Prezidentinin 23 aprel 2018-ci il tarixli Sərəncamı ilə Ceyhun Əziz oğlu Bayramov Azərbaycan Respublikası təhsil nazirinin müavini vəzifəsindən azad edilib. Dövlət başçısının həmin gün imzaladığı “Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 aprel tarixli Sərəncamına əlavələr edilməsi barədə” Sərəncamına əsasən Ceyhun Bayramov Azərbaycan Respublikasının təhsil naziri vəzifəsinə təyin olunub.

Aprelin 24-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təhsil naziri vəzifəsinə təyin olunmuş Ceyhun Bayramovu nazirliyin kollektivinə təqdim edib.



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Ramiz Mehdiyev son illərdə ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda bütün sahələrdə nailiyyətlər əldə olunduğunu, xüsusilə təhsil sahəsində həyata keçirilən islahatları diqqətə çatdırıb.

Ceyhun Bayramov dövlət başçısı tərəfindən ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirib. Nazir ölkə Prezidentinin təhsil sahəsində qarşıya qoyduğu geniş hədəfli vəzifələrin icrasının layiqincə yerinə yetirilməsi üçün bütün qüvvənin səfərbər olunacağını vurğulayıb.

## “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər və “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin həcmini müəyyən etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 23.7-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən 4.0.4-cü (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin maliyyə mexanizmlərini və normativlərini müəyyən etmək üzrə) və 4.0.15-ci (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri hazırlamaq üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

1.3. həmin Qanunun 4.0.7-ci, 4.0.10-cu, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin akkreditasiyasını həyata keçirmək üzrə) və 4.0.18-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

1.4. həmin Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.14-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrində tibbi xidməti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

1.5. həmin Qanunun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin icrasına nəzarəti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

1.6. həmin Qanunun 23.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini, o cümlədən öz tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinə münasibətdə 4.0.8-ci, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin işçilərin attestasiyasını həyata keçirmək üzrə) və 4.0.14-cü (dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasını təmin etmək üzrə) maddələrində nəzərdə tutulmuş vəzifələri, həmçinin 4.0.15-ci maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək üzrə vəzifəni yerli icra hakimiyyəti orqanları (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyəti) həyata keçirirlər.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu fərmana uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikası Qanununun 4.0.3-cü maddəsində nəzərdə tutulmuş vəzifəni həyata keçirəcək icra hakimiyyəti orqanı barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.5. bu fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**4.** “Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 6, maddə 1087) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci bənddə “(məktəbəqədər təhsil sahəsində dövlət siyasətini formalaşdırmaq üzrə)” sözlərindən sonra vergül işarəsi qoyulsun, “və” sözü çıxarılsın və “(məktəbəqədər təhsilə dair normativ hüquqi aktlar təsdiq etmək üzrə)” sözlərindən sonra “və 4.0.4-cü maddəsində (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin həcmini müəyyən etmək üzrə)” sözləri əlavə edilsin;

4.2. 2.2-ci bənddə “23.1-ci” sözlərindən sonra “, 23.7-ci” sözləri, “4.0.6-cı” sözlərindən əvvəl “4.0.4-cü (məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin maliyyə mexanizmlərini və normativlərini müəyyən etmək üzrə),” sözləri, “və 4.0.19-cu” sözlərindən əvvəl “, 4.0.15-ci (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri hazırlamaq üzrə)” sözləri əlavə edilsin;

4.3. 2.4-cü bənddə “15.3-cü maddəsində” sözləri “15.3-cü və 23.3-cü maddələrində” sözləri ilə əvəz edilsin, “4.0.13-cü” sözlərindən əvvəl “4.0.8-ci, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin işçilərinin attestasiyasını həyata keçirmək üzrə),” sözləri, “və 4.0.16-cı” sözlərindən əvvəl “, 4.0.14-cü (dövlət məktəbəqədər təhsil müəssisələrində uşaqların qidalanmasını təmin etmək üzrə)” sözləri, “həyata keçirirlər” sözlərindən əvvəl “, 4.0.15-ci maddəsində (məktəbəqədər təhsil müəssisələrinin yaradılması və inkişafını təşviq edən mexanizmləri həyata keçirmək üzrə) nəzərdə tutulmuş vəzifəni yerli icra hakimiyyəti orqanları (Bakı şəhəri üzrə Bakı Şəhər İcra Hakimiyyəti, Gəncə şəhəri üzrə Gəncə Şəhər İcra Hakimiyyəti)” sözləri əlavə edilsin;

4.4. 2.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.5-ci, 2.6-cı, 2.7-ci bəndlər əlavə edilsin:

“2.5. həmin Qanunun 4.0.7-ci, 4.0.10-cu, 4.0.12-ci (məktəbəqədər təhsil müəssisəsinin akkreditasiyasını həyata keçirmək üzrə) və 4.0.18-ci maddələrində nəzərdə tutulmuş vəzifələri Azərbaycan Respublikasının Təhsil Nazirliyi həyata keçirir;

2.6. həmin Qanunun 14.2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini və 4.0.14-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsil müəssisələrində tibbi xidməti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi həyata keçirir;

2.7. həmin Qanunun 4.0.4-cü maddəsində nəzərdə tutulmuş məktəbəqədər təhsilin inkişafına ayrılan dövlət büdcəsi vəsaitinin icrasına nəzarəti təmin etmək üzrə vəzifəni Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 23 aprel 2018-ci il*

# AMEA-nın prezidentinə ADNSU-nun fəxri professoru diplomu təqdim olunub

Aprelin 25-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (AMEA), akademik Akif Əlizadəyə ADNSU-nun fəxri professoru diplomunun təqdimat mərasimi keçirilib.

Tədbirdə təhsil naziri Ceyhun Bayramov, AMEA-nın prezidenti Akif Əlizadə, akademiyanın həqiqi və müxbir üzvləri, ADNSU-nun professor-müəllim heyəti iştirak edib.

Qonaqları salamlayan ADNSU-nun rektoru Mustafa Babanlı ölkəmizdə elmi-texniki tərəqqinin və təhsilin hərtərəfli inkişafında Akif Əlizadənin gördüyü mühüm işlərdən danışıb, universitet əməkdaşlarının, xüsusilə neftçi və geoloqların, elmdə ilk addımlarını atan gənc alimlərin Akif Əlizadənin qayğı və dəstəyini daim hiss etdiklərini bildirib.

Təhsil naziri Ceyhun Bayramov akademik Akif Əlizadənin Azərbaycanda elmin, o cümlədən geologiya və geofizika elminin inkişafında mühüm rol oynadığını qeyd edib, gənc alimlərin yetişməsində əvəzsiz xidmətlər göstərdiyini vurğulayıb. Nazir akademik Akif Əlizadənin keçdiyi şərəfli həyat yolunun hər bir tələbə və gənc alim üçün örnək olduğunu bildirib.

Daha sonra çıxış edənlər AMEA prezidentinin Azərbaycan elminə verdiyi töhfələrdən danışıb, onun rəhbərliyi ilə onlarla alimin yetişdiyini diqqətə çatdırıblar.



AMEA-nın prezidenti Akif Əlizadə haqqında deyilən xoş sözlərə görə təşəkkür edib. Azərbaycanda təhsilin və elmin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu deyən akademik bunu müasir dövrdə yüksək intellektli gəncliyin formalaşmasında qarşıda duran vəzifələrdən biri kimi səciyyələndirib.

Sonra Mustafa Babanlı AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə ADNSU-nun fəxri professoru diplomunu təqdim edib.

# SABAH qruplarının bilik yarışı qaliblərinin mükafatlandırılma mərasimi

Aprelin 25-də Bakı Dövlət Universitetində Təhsil Nazirliyinin SABAH qrupları layihəsi çərçivəsində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibəti ilə təşkil olunan riyaziyyat, müəllimlik və informasiya texnologiyaları üzrə bilik yarışı qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.

Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov tədbiri giriş sözü ilə açaraq ölkə Prezidenti cənab İlham Əliyevin 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsindən bəhs edib və bu münasibətlə keçirilən yarışı yüksək qiymətləndirib.

Mərasimdə iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov bilik yarışını tələbələrin tədris dövründəki inkişafında, təlim və peşə hazırlığı üzrə biliklərinin gerçəkləşdirilməsində və peşəkar kadr kimi yetişməsində mühüm addım kimi dəyərləndirib. Nazir müavini bilik yarışının qaliblərini təbrik edib və onlara uğurlar arzulayıb.

Sonra çıxış edən SABAH İcra Komitəsinin rəhbəri Şahin Seyidzadə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov və Azərbaycan Texniki Universitetinin rektor əvəzi



Xaliq Yahudov yarışın tələbələrin fərdi inkişafı, dünyagörüşü, bilik və bacarıqlarının yüksəlməsi baxımından əhəmiyyətini vurğulayıblar.

Sonda qaliblərə mükafatlar təqdim olunub.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş riyaziyyat, müəllimlik və informasiya üzrə bilik yarışı iki mərhələ və finaldan ibarət olmaqla 8 ali təhsil müəssisəsinin 520-dək SABAH tələbəsinin iştirakı ilə keçirilib.

# ADPU Moskva Dövlət Universitetinin tarix fakültəsi ilə müqavilə imzalayıb

Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) dünyanın nüfuzlu ali təhsil müəssisələri ilə əlaqələrin yaradılmasına, elmin müxtəlif sahələrində çalışan tanınmış alim-mütəxəssislərin bilik və təcrübəsinin öyrənilməsinə, onlarla fikir mübadiləsinin aparılmasına böyük önəm verilir. Bu baxımdan, aprelin 23-də M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) tarix fakültəsinin dekanı, tarix elmləri doktoru, professor İvan Tuçkovun, həmin fakültənin dekan müavini və elmi katibi, tarix elmləri namizədi, dosent Oksana Solopovanın, tarix elmləri namizədi, "Yaxın xarici ölkələr tarixi" kafedrasının dosenti İsmayıl Ağakişiyevin ADPU-ya səfərə gəlməsini xüsusi qeyd etmək olar. Səfər zamanı qonaqlar əvvəlcə Rusiya Federasiyasının Azərbaycandakı səfirliyində, MDU-nun Bakı Filialında görüşlər keçiriblər. Sonra ADPU-da universitetin rəhbərliyi və müəllimləri ilə görüşüblər.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov qonaqları salamlayaraq onları rəhbərlik etdiyi universitetdə görməsindən məmnunluq duyduğunu bildirib. Qeyd edib ki, M.V.Lomonosov adına MDU dünyanın tanınmış və nüfuzlu ali təhsil müəssisələrindən biridir. Bu gün ADPU ilə MDU-nun tarix fakültəsi arasında əməkdaşlığın əsası qoyulur. ADPU-nun qarşıdan 100 illik yubileyi gəlir. Universitet böyük və zəngin elm və təhsil ənənələrinə malikdir. ADPU-nun bir neçə müəllimi MDU-nun məzunudur. MDU-nun tarix fakültəsi ilə əməkdaşlıq haqqında müqaviləni imzalamaqla universitet öz beynəlxalq əlaqələrini daha da genişləndirir. Bu müqavilənin uğurla həyata keçirilməsində tarix və coğrafiya fakültəsinin üzərinə mühüm məsuliyyət düşür. Rektor çıxışının sonunda əməkdaşlığın hər iki tərəf üçün faydalı olacağını vurğulayıb.

MDU-nun tarix fakültəsinin dekanı, professor İvan Tuçkov səmimi və mehriban münasibətə görə təşəkkür edib. Bildirib ki, ADPU ilə əməkdaşlıq haqqında müqavilənin imzalanması mühüm hadisədir. Bu müqavilə qarşılıqlı anlaşmaya, bərabərliyə və hörmətə əsaslanır. Professor İvan Tuçkov əməkdaşlıq müqaviləsinin uğurla həyata keçiriləcəyini qeyd edib.

Sonra əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilədə qarşılıqlı maraq kəsb edən birgə elm və təhsil layihələrinin gerçəkləşdirilməsi, dünya əhəmiyyətli problemlərlə bağlı müştərək elmi konfransların, simpoziumların, seminarların təşkili, akademik mobillik imkanı, tələbə və müəllimlərin, eləcə də informasiya, elmi nəşrlərin və tədris-metodiki ədəbiyyatın mübadiləsi nəzərdə tutulub.

MDU-nun tarix fakültəsinin dekan müavini və elmi katibi, dosent Oksana Solopova, "Yaxın xarici ölkələr tarixi" kafedrasının dosenti İsmayıl Ağakişiyev, ADPU-nun tarix və coğrafiya fakültəsinin dekanı, dosent Şahin Pənahov, "Azərbaycan tarixi" kafedrasının müdiri, dosent Naibə Əhmədova, dosent İradə Qasımova, musiqi, təsviri incəsənət, fiziki tərbiyə və gənclərin çağırışaqədər hazırlığı fakültəsinin dekanı, dosent Laçın Həsənova çıxış edərək imzalanmış müqaviləni yüksək qiymətləndirib və hər iki tərəfə uğurlar arzulayıblar.

Görüşdə həm də MDU-nun məzunlarının təşkilati dəstəyi ilə rusiyalı və azərbaycanlı tarixçilərin assosiasiyasının yaradılması müzakirə edilib və bu qurumun yaradılması məqsədəuyğun sayılıb. Mərasimdə həmçinin orta məktəblərin tarix müəllimləri üçün Rusiya-Azərbaycan münasibətlərinin ümumi tarixinə dair metodik tövsiyələrin layihəsi müzakirə olunub.

Aprelin 24-də isə professor İvan Tuçkovun ADPU-da "Əbədi şəhərin yolları" mövzusunda mühazirəsi keçirilib.

# ADU Türk Universitetlər Birliyinə üzv olub

Azərbaycan Dillər Universitetinin (ADU) beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova 19-20 aprel 2018-ci il tarixlərində Bişkekin Qırğızıstan-Türkiyə Manas Universitetində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) nəzdində fəaliyyət göstərən Türk Universitetlər Birliyinin III Ümumi Yığıncağında iştirak edib. Yığıncaqda ADU Türk Universitetlər Birliyinə üzv seçilib.

Qeyd edək ki, birlik türkdilli ölkələr arasında işbirliyini təmin edən beynəlxalq qurum olaraq 2009-cu ildən fəaliyyət göstərir. Türkiyə, Azərbaycan, Qırğızıstan və Qazaxıstan adıçəkilən Şuranın yaradıcılarıdır.

Yığıncaq zamanı prorektor Jalə Qəribova Qırğızıstan-Türkiyə Manas Universitetində Azərbaycan Dillər Universitetinin yaranma və inkişaf tarixi, fəaliyyəti və beynəlxalq əlaqələri, proqram və qrant layihələrində iştirakı barədə tanıtım təqdimatı edib.

ADU-nun dünyanın bir çox universitet və təşkilatları ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq müqavilələri imzaladığını, beynəlxalq layihələrdə iştirak etdiyini diqqətə çatdıran J.Qəribova son on il ərzində 500-dən çox tələbənin bu proqramlar çərçivəsində dünyanın müxtəlif universitetlərində təhsil aldığını deyib.

Prorektor təqdimatında hər il ADU-da universitetin uğurlu fəaliyyəti nəticəsində ingilis, alman, fransız, macar, polyak, italyan, ispan, yapon, Koreya, Çin və digər dillərin tədrisi üzrə dünyanın bir çox ölkələrindən professor, müəllim və mütəxəssislərin tədris proqramlarına cəlb edildiyini, eyni zamanda xarici tələbələrin təhsil aldığını qeyd edib.

J.Qəribova, həmçinin ADU-nun Türkiyənin bir çox universitetləri ilə həm ikitərəfli müqavilə, həm Erasmus +, həm də Mevlana proqramı çərçivəsində əməkdaşlıq etdiyini əlavə edib.

# Təhsil nazirinin müavini Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin təhsil nazirlərinin görüşündə iştirak edib

Aprelin 20-də təhsil nazirinin müavini Firudin Qurbanov Moskvada təşkil olunan Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına (QDİƏT) üzv dövlətlərin təhsil nazirlərinin görüşündə iştirak edib.

Tədbirin açılış mərasimində Rusiya Federasiyasının təhsil və elm naziri Olqa Vasilyeva və QDİƏT-in baş katibi Mixael Kristides çıxış ediblər.

Daha sonra görüşdə iştirak edən üzv dövlətlərin nümayəndələrinə söz verilib. Firudin Qurbanov "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" çərçivəsində təhsil sahəsində aparılan islahatlar və onların müsbət tendensiyaları haqqında tədbir iştirakçılarına məlumat verib.

Nazir müavini həmçinin, ölkəmizin QDİƏT üzv dövlətləri ilə təhsil sahəsində ikitərəfli əsasda həyata keçirilən əməkdaşlığı, xüsusilə ali təhsil müəssisələri arasında mövcud əlaqələri qeyd edib.

# Milli Suverenlik və Uşaq Bayramı qeyd olunub

Heydər Əliyev Sarayında 23 Aprel - Milli Suverenlik və Uşaq Bayramına həsr olunmuş mərasim keçirilib.

Mərasim hər iki ölkənin himninin səsləndirilməsi ilə başlayıb.

Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral bu günün tarixindən, Türkiyə və Azərbaycanın dostluq münasibətlərindən danışıb. Səfir belə bir tədbirin keçirilməsindən məmnun olduqlarını vurğulayıb və uşaqlara ən xoş arzularını çatdırıb.

Tədbirdə iştirak edən təhsil nazirinin müavini Firudin Qurbanov uşaqları əlamətdar gün münasibəti ilə təbrik edərək bu bayramın Azərbaycanda da qeyd edilməsinin ölkələrimiz arasındakı dostluq və qardaşlığın göstəricisi olduğunu vurğulayıb. Nazir müavini ölkəmizdə uşaqların yüksək qayğı və diqqətlə əhatə edildiyini, onların sağlam böyüməsi və təhsil alması üçün hər cür şərait yaradıldığını bildirib.

Tədbir musiqi, rəqs və teatr proqramı ilə davam edib. Bayram tədbirində Təhsil Nazirliyinin 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin "Azəri inciləri" kollektivi milli və türk xalqlarının rəqslərindən ibarət kompozisiya ilə çıxış edib.

Türkiyə Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral tədbirin keçirilməsində əməyi olan təşkilatçılara, o cümlədən 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin rəhbərliyinə mükafat təqdim edib.

# Akademik Zərifə xanım Əliyeva BMU-da anılıb

Bakı Mühəndislik Universitetində görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın 95 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə öncə akademik Zərifə Əliyevanın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onun həyat və fəaliyyətinə həsr olunan film nümayiş olunub.

Universitetin rektoru, professor Havar Məmmədov Zərifə xanım Əliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti haqqında geniş məlumat verib. Bildirib ki, akademik Zərifə Əliyeva gözəl ana, vəfalı ömür-gün yoldaşı, intellektual keyfiyyətləri özündə birləşdirən ziyalı, dünya tibb elminə əvəzolunmaz töhfələr vermiş böyük oftalmoloq alim olub.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin aparıcı elmi işçisi Nübar Haşımova çıxışında onu şəxsən tanıdığını və Zərifə Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri olduğunu qeyd edib. Bildirib ki, Zərifə xanım ölkəmizdə oftalmologiyanın, xüsusən gözdə əmələ gələ biləcək peşə xəstəliklərinin müalicəsinə dair bir çox sanballı tədqiqatların və elmi əsərlərin müəllifidir.

Azərbaycan Respublikası Qadınlar Şurasının sədri Bahar Qasımova akademik Zərifə Əliyevanın xeyirxahlığından söz açıb. Qeyd edib ki, Zərifə Əliyeva xanımlar üçün nümunədir. Bahar Qasımova rəhbərlik etdiyi qurumun akademikin yubileyi münasibətilə keçirdiyi tədbirlər barədə də məlumat verib.

Sonda tədbirin təşkilatçısı olan Bakı Mühəndislik Universiteti Qadınlar Şurasının sədri Ətrabə Gül mərasimin yeni yaradılan qurumun ilk tədbirlərindən olduğunu bildirib, universitetdə işləyən və oxuyan xanımların elmi və ictimai fəaliyyətlərində akademik Zərifə Əliyevanı örnək alaraq ölkəmizin inkişafına töhfə verəcəklərinə inandığını söyləyib.

# Peşə Təhsili üzrə Dövlət Agentliyində görüş

Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyində Asiya İnkişaf Bankının (AİB) Azərbaycanda ölkə üzrə diaqnostik tədqiqatla bağlı araşdırma missiyası ilə görüş keçirilib.

Görüşün keçirilməsində məqsəd 2016-cı ildə qəbul olunmuş strateji yol xəritələrində Azərbaycanın inklüziv və dayanıqlı inkişafı üzrə maneələrin müəyyən olunması istiqamətində həyata keçirilən ölkə üzrə diaqnostik tədqiqatın ilkin nəticələri barədə müzakirələrin aparılması olub.

Görüşdə Azərbaycan və Asiya İnkişaf Bankı arasında əməkdaşlığın çoxşaxəli olduğunu vurğulayan Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Famil Mustafayev ölkədə peşə təhsilinin vəziyyəti, mövcud problemlər və bu istiqamətdə aparılan islahatlar haqqında geniş məlumat verib, peşə təhsilinin inkişafı üçün birgə əməkdaşlığın həyata keçirilməsinin məqsədəuyğunluğunu vurğulayıb.

Görüş zamanı AİB-in ölkə üzrə diaqnostik tədqiqatla bağlı araşdırma missiyası Azərbaycanda apardıqları ölkə iqtisadiyyatının diaqnostik tədqiqat layihəsi, ilkin nəticələri, eləcə də hərtərəfli tədqiqat istiqamətini müəyyən edilən əsas sektor və mövzular barədə ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, ölkə üzrə diaqnostik tədqiqat AİB-in 2019-2023-cü illəri əhatə edən Azərbaycan üzrə yeni Ölkə Tərəfdaşlıq Strategiyasının hazırlanması üçün mühüm məlumatları əks etdirəcək.

Daha sonra ölkə üzrə diaqnostik tədqiqatın ilkin nəticələrinə dair fikir mübadiləsi aparılıb.

# "Gəlin birgə oxuyaq!"

## "Oxu Günü" növbəti dəfə kitabsevərləri bir araya gətirdi

⇦ Əvvəli səh.1

**Samirə KƏRİMOVA**

Təqdimatlarda böyüməkdə olan nəslin hərtərəfli dünyagörüşünün formalaşmasında, bədii təxəyyülünün inkişafında, mütaliə mədəniyyətinin, oxu vərdişlərinin artırılmasında bir daha kitabın rolu qeyd olundu.

Şagirdlərin Azərbaycan və dünya klassikləri haqqında fərqli, özünəməxsus şəkildə məlumat vermələri, onların yazdıqları əsərlərdən monoloqlar söyləmələri, təşkil olunan intellektual yarışlarda fəallıq göstərmələri, musiqili kompozisiyaları tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanırdı.

"Oxu Günü"ndə həmçinin 30-dək nəşriyyat və kitabxananın kitab sərgi-yarmarkası təqdim etməsi, tədbir çərçivəsində "Kitab qoy-kitab götür" aksiyası da kitabsevərlərin ürəyincə idi. Hər kəs özünə lazım olan, ehtiyac duyduğu kitabı güzəştli qiymətlərlə əldə edə bilirdi.

Mütaliə özündə kitaba sevgi, alışqanlıq, oxucuda maraq oyatmaq, oxuduğunu qavramaq və dərk etmək kimi anlayışları birləşdirir. Mütaliə həm də intellektual inkişafın mühüm göstəricisi hesab edilir ki, bu da uşaq və yeniyetmələri gələcəkdə mədəni ünsiyyətə, doğru peşə seçiminə, faydalı işlə məşğul olmağa istiqamətləndirir.

Tədbirin məqsədi yeniyetmə və gənclər arasında mütaliəyə marağın artırılması, oxu vərdişinin inkişafına nail olmaq idisə, buradakı müşahidələrimizə əsasən əminliklə deyə bilərik ki, təşkilatçılar növbəti dəfə buna nail oldular.

Bir daha bayramımız mübarək, əziz kitabsevərlər!

# "Gələcəyini Qur" Gəncliyə Dəstək Layihəsinə start verilib

"Gələcəyini Qur" Gəncliyə Dəstək Layihəsi üzrə paytaxtın ümumi təhsil müəssisələrində seçimlərə start verilib.

Artıq 5-ci ildir keçirilən layihənin əsas məqsədi aztəminatlı ailələrdən olan yüksək bilik və bacarığa malik gənclərin müvafiq ixtisas istiqamətləri üzrə qəbul imtahanlarına əlavə hazırlığını təmin etmək, hərtərəfli fərdi inkişaf istiqamətində onlara dəstək vermək və bununla da Azərbaycan cəmiyyətinə yüksək intellektə malik sağlam düşüncəli gənclər qazandırmaqdan ibarətdir. Layihə şagirdlərin ailəsinin sosial vəziyyəti, onların oxuma həvəsi, bilik və potensialı kimi meyarlar əsasında həyata keçirilir.

Aprel ayından start götürən layihənin Bakının 5 rayonu (Binəqədi, Xətai, Sabunçu, Suraxanı və Qaradağ) və paytaxtdan kənarda yerləşən 5 regionda keçirilməsi nəzərdə tutulur.

Layihəyə seçim 5 mərhələdən - ərizə formalarının qiymətləndirilməsi, namizədlərin ixtisas fənləri üzrə ümumi bilik səviyyəsinin ölçülməsi üçün sınaq imtahanı, namizədlərin müsahibə yolu ilə dəyərləndirilməsi, bir aylıq sınaq dərsləri və sınaq imtahanı, namizədlərin ailələri ilə tanışlıqdan ibarətdir.

Layihə Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin dəstəyi, korporativ sosial məsuliyyət (KSM) siyasəti çərçivəsində "İTECA Caspian", BP və tərəfdaşları, "EY Azərbaycan", Baker Tilly Azərbaycan, "Kainat" Tədris Mərkəzi, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, "Caspian Event Organisers" şirkətlərinin sponsorluğu ilə həyata keçirilir. Layihənin tərəfdaşları "ADA" Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Ali Neft Məktəbi, Bakı Mühəndislik Universiteti və Xəzər Universitetidir.

Qeyd edək ki, ötən il 130 şagird layihənin iştirakçısı adını qazanıb. Ümumilikdə, indiyədək 300-ə yaxın gənc layihədən yararlanıb. Gənclərin əksəriyyəti hazırda müxtəlif ali təhsil müəssisələrində ödənişsiz əsaslarla təhsil alır.

# AzTU Yıldız Texniki Universiteti ilə əməkdaşlığa başladı

## Azərbaycanlı alimlərin kosmik sənaye və metallurgiya sahəsindəki araşdırmaları türkiyəli həmkarlarını maraqlandırır

**Ruhiyyə DAŞSALAHLI**

Türkiyənin "Top universitetlər" siyahısında ilk beşliyə düşən Yıldız Texniki Universiteti ilə Azərbaycan Texniki Universiteti kadr hazırlığı sahəsində səylərini birləşdirəcək. Əldə olunan ortaq qərara görə, bundan sonrakı mərhələdə elmi-texniki tədqiqatlar qarşılıqlı müzakirə, hər bir yenilik birgə sınaqdan çıxarılıb tətbiq ediləcək. Sənayenin texniki idarəetmə, həmçinin təşkili üzrə yüksək ixtisaslı mühəndis kadr hazırlayan və bunu, demək olar ki, eyni istiqamətdə həyata keçirən universitetlər tələbə-müəllim mübadiləsi aparacaq, resurslardan, xüsusilə maddi-texniki bazadan ortaq istifadə edəcək, birgə konfranslar, seminarlar keçirəcəklər.

Bütün bunlar Azərbaycan Texniki Universiteti ilə Türkiyənin Yıldız Texnik Universiteti arasında imzalanan əməkdaşlıq müqaviləsinə əsasən gerçəkləşəcək.

### AzTU nə qazanacaq?

AzTU Türkiyənin artıq 19 universiteti ilə əməkdaşlıq edir. Universitetdə "Mövlanə Mübadilə Proqramı" üzrə müəllim-tələbə mübadiləsi uğurla həyata keçirilir. Bu son müqavilə isə azərbaycanlı tələbələrin dünyanın qabaqcıl müəssisələrinin tələblərinə cavab verən kadrlar kimi yetişməsinə böyük təkan verəcək. Müqavilə çərçivəsində AzTU-nun həm tələbələri, həm də gənc müəllimləri Yıldız Texniki Universitetinin texnoparkında proqram təminatı, informasiya və kommunikasiya texnologiyaları, telekommunikasiya, elektronika, maşın və avadanlıq istehsalı, enerji, müdafiə sənayesi, ticarət, nəqliyyat və digər sahələrdə tədqiqat aparmaq imkanı qazanacaq. Onların öz texniki startaplarını bu texnoparkın inkubatorlarında biznesə çevirmələri üçün şəraiti olacağına ümidləri çox böyükdür.

Azərbaycan Texniki Universiteti ilə Yıldız Texniki Universiteti arasında əldə edilən razılaşmanın şərtləri AzTU-nun üzünə hətta dünyanın qapılarını aça bilər. Belə ki, Yıldız Texniki Universitetinin beynəlxalq əlaqələrindən yararlanaraq dünyanın nüfuzlu universitetləri ilə üçlü və ikili əlaqələrin qurulması da gözləniləndir. İki universitet arasında yenicə imzalanan razılaşmada gələcəkdə ikili diplomların verilməsi məsələsi də əksini tapıb.

### Yıldız Texniki Universiteti nə əldə edəcək?

Azərbaycan Texniki Universitetinin bu müqavilədən gözləntiləri olduqca yüksəkdir. Müqavilədən görünən odur ki, bu əməkdaşlıq Azərbaycan ali təhsil müəssisəsinin inkişafına öz töhfəsini verəcək. Bəs, Türkiyədə və dünyada kifayət qədər yüksək reytinqə və texniki ali təhsil sahəsində böyük maddi-texniki bazaya sahib olan Yıldız Texniki Universiteti bu əməkdaşlıqdan nə əldə edəcək?

Məlumat üçün qeyd edək ki, əsasən mühəndis hazırlayan 11 fakültədə 36 min tələbənin təhsil aldığı Yıldız Texnik Universiteti, sadəcə texniki bazasına görə AzTU-dan dəfələrlə irəlidədir. Tələbələrin nəzəri biliklərinin istehsalatda tətbiqinə şərait yaradan həmin texnopark 370 firmaya və 7000-dən çox kadr potensialına malikdir. AzTU-da bu yüksək səviyyəli Türkiyə universitetini cəlb edən bir amil var. Belə ki, Azərbaycan Texniki Universitetinin professorlarının kosmik sənaye və metallurgiya sahəsindəki araşdırmaları, tədqiqatları türkiyəli həmkarlarını daha çox maraqlandırır. Hər iki universitetin alimlərinin xüsusilə müvafiq sahədə yaxından əməkdaşlığı və bu əməkdaşlıqdan böyük nəticə əldə edilməsi istiqamətində geniş imkanlar açılır.

Qeyd edək ki, AzTU ilə Yıldız Texniki Universiteti arasındakı əməkdaşlığın effektivliyini artırmaq üçün hər iki universitetdə koordinatorlar fəaliyyət göstərəcək.



### Rektorlar ümidlidir

Azərbaycan Texniki Universitetinin rektor əvəzi Xalıq Yahudovun fikrincə, hər iki universitet bu əməkdaşlıqdan böyük fayda əldə edəcək: "SSRİ dövründə ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illərdə universitetimizin maddi-texniki bazası gücləndirilib, özünün şəxsən iştirakı ilə laboratoriyalar istifadəyə verilib. Sonrakı dövrlərdə, müstəqillik illərində inkişaf tempi daha da sürətlənib. Təbii ki, bu prosesdə qardaş Türkiyə ilə olan əlaqələrin də payı var. Hazırda AzTU Türkiyənin 19 universiteti ilə sıx əməkdaşlıq edir. "Mövlanə Mübadilə Proqramı" üzrə müəllim-tələbə mübadiləsini uğurla həyata keçiririk. İki ölkənin qardaşlıq əlaqələri elmi biliklərin qarşılıqlı mənimsənilməsinə və tətbiqinə şərait yaradıb. İndi bizim ölkədə, hətta Azərbaycan Texniki Universitetində Türkiyə universitetlərinin məzunu olmuş xeyli mütəxəssis çalışır. Məlumatıma görə, Yıldız Texniki Universitetinin professor-müəllim heyətində də azərbaycanlı alimlər var. Bütün bunlar sevindirici haldır və ölkələrimiz arasında getdikcə inkişaf edən siyasi, iqtisadi, elmi və mədəni əlaqələr universitetlərimiz arasında qurulan əlaqələri daha da gücləndirəcək".

Yıldız Texniki Universitetinin rektoru, professor Bahri Şahin iki universitet arasında münasibətlər qurulmasından razıdır: "Yıldız Texniki Universiteti Türkiyənin "Top universitetlər" siyahısında ilk beşliyə düşən bir universitet olaraq Azərbaycanın texniki ali təhsil sahəsində flaqman universiteti - Azərbaycan Texniki Universiteti ilə əməkdaşlıqdan gözləntiləri olduqca böyükdür. Bizim tədqiqatçılarımız Azərbaycan Texniki Universitetinin professorlarının kosmik sənaye və metallurgiya sahəsindəki araşdırmaları, tədqiqatları ilə maraqlanır. İki universitetin müvafiq elm adamlarının xüsusi ilə bu sahədə yaxından əməkdaşlıq edəcəyini, bu sahədə sizin alimlərin topladığı bilikləri bizimlə bölüşəcəyini arzu edirik. Təbii ki, əməkdaşlığımız bununla bitməyəcək. Bizim universitetlərimizdə kadr hazırlığı, demək olar ki, eyni istiqamətlərdə həyata keçirilir. Hər iki universitetdə yüksək ixtisaslı mühəndis kadrlar hazırlanır. Bu kadrların hazırlanması ilə bağlı səylərimizi birləşdirməliyik".

# Əcnəbi vətəndaşlar AzMİU-da təhsilə cəlb olunurlar

## Universitet rəhbərliyi bu istiqamətdə məqsədyönlü iş aparır



**Gülnarə ƏSGƏRƏLİZADƏ,**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin Əcnəbi vətəndaşların hazırlığı fakültəsinin dekanı*

Bu gün əminliklə deyə bilərik ki, müasir qloballaşma əsrində Azərbaycan müstəqilliyini və dövlətçiliyini möhkəmləndirərək sosial-siyasi və iqtisadi dəyişiklikləri həyata keçirən, milli maraqları əsas götürərək dünyada sivil, demokratik cəmiyyət quran bir dövlət kimi tanınır. Ölkəmiz müstəqillik əldə etdiyi dönəmdən ötən qısa zaman kəsiyində artıq özünəməxsus inkişaf modeli olan, dinamik və sabit inkişaf edən dövlətlər sırasında yer almaqdadır. Bu gün ölkəmiz qabaqcıl Qərb dünyasına, onun ayrılmaz hissəsi olan Avropaya inteqrasiya xəttini ardıcıl olaraq reallaşdırmaqdadır.

Azərbaycanın sivil dünyaya inteqrasiyası və ölkədə sosial-iqtisadi inkişafın təmin olunması daha çox elmin və təhsilin inkişafından, onun dünya təhsil məkanına inteqrasiyasından, yeni elmi biliklərin, texnika və texnologiyaların mənimsənilmə səviyyəsindən asılıdır. Sevindirici haldır ki, digər sahələrdə olduğu kimi dövlətimizin ali təhsildə Avropa təhsil məkanına inteqrasiya xəttinin tələblərinə uyğun həyata keçirdiyi islahatlar öz nəticələrini verməkdədir. Azərbaycanın 2005-ci ildə Bolonya prosesinə qoşulması ölkədə ali təhsil islahatlarının yeni mərhələsinə start vermişdir. Bu çərçivədə 2009-cu ildə qəbul edilmiş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"na uyğun olaraq ali təhsilin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması sahəsində mühüm işlər görülür. Bu gün Azərbaycanın ali məktəbləri təhsil və tədrisdə, habelə elm istiqamətində beynəlxalq əlaqələrə üstünlük verir, Avropa Birliyi universitetləri ilə mübadilə və əməkdaşlıq əlaqələri quraraq dialoq və mədəni əlaqələrin inkişaf etdirilməsini hədəfləyən təhsil və tədqiqat proqramında iştirak edirlər. Eyni zamanda Türkiyə Respublikası tərəfindən həyata keçirilən "Mövlanə Mübadilə Proqramı" da universitetlərimizə imkan verir ki, qonşu ölkənin ali təhsil məktəbləri ilə qarşılıqlı şəkildə tələbə-müəllim mübadiləsi apara bilsinlər.

Bu gün müasir dünyanın tələblərinə uyğun olaraq Azərbaycan Memarlıq və İnşaat Universitetinin də beynəlxalq əlaqələri xarici ölkə universitetləri ilə ikitərəfli əməkdaşlığı, beynəlxalq təhsil proqramlarında iştirakı, əcnəbi tələbələrin cəlb olunması, ortaq Yay Məktəblərinin, ikili diplom proqramlarının reallaşdırılmasını, birgə elmi konfransların və seminarların təşkilini, müvafiq beynəlxalq təşkilatlarla işbirliyi və digər istiqamətləri əhatə edir. Bu əməkdaşlığın mühüm həlqələrindən birini təşkil edən əcnəbi tələbələrin cəlb olunması məsələsi universitetimiz üçün həmişə əsas istiqamətlərdən biri sayılır. Təsadüfi deyil ki, əcnəbi tələbələrin sayına görə AzMİU ali təhsil müəssisələri arasında Azərbaycan Tibb Universitetindən sonra ikinci yeri tutur.

Bir məsələni xüsusi qeyd etmək istəyirəm ki, əcnəbi tələbələrin daha çox AzMİU-ya axın etməsinin səbəbləri var. Belə ki, universitetin Əcnəbi vətəndaşların hazırlığı fakültəsi olaraq artıq iki ildir ki, AzMİU-nun xarici ölkələrdə təbliği üçün məqsədyönlü fəaliyyət göstərir. Fakültənin əməkdaşları Əminə Ağayeva və İsa Muradov universitetin, fakültə və ixtisaslarının tanıdılması, əcnəbi tələbələrin bu ixtisaslara cəlb olunması məqsədilə Azərbaycanın Türkiyədəki konsulluğunun dəstəyi ilə ötən il İqdırda, Qars, Ağrı, Van, Siirt və İstanbulda maraqlı görüşlər keçiriblər, universitetin tanıtımını həyata keçiriblər. Əməkdaşlarımız AzMİU-nun tarixi, fakültə və ixtisasları, beynəlxalq əlaqələri, əcnəbilərin universitetə qəbul qaydaları barədə geniş məlumatlar, tədbir iştirakçılarına universitetlə bağlı dəyərli bilgilər verib, onların çoxsaylı suallarını cavablandırıblar. Bu işdə Azərbaycan Respublikasının Qarsdakı Baş Konsulu Nuru Quliyev, Baş Konsulluğun Attaşesi (İqdır bölməsi) Behbud Qadalı, Azərbaycan Respublikasının Türkiyə Cümhuriyyətindəki səfirliyinin birinci katibi (Təhsil məsələləri) Nəcibə Nəsibova bizə xüsusi köməklik göstərib. Vanda Anadolu liseyinin konfrans zalında keçirilən görüşdə Türkiyənin Təhsil Nazirliyinin yüksək vəzifəli dövlət məmurları da iştirak ediblər. Nazirlik rəsmiləri də zalda toplanmış məzunlara seçim zamanı doğru addım atmağı, universitetlər arasından ən yaxşılara üstünlük verməyi məsləhət görüblər. İstanbulda xaricdə təhsil şirkətlərinin rəhbərləri ilə keçirilən görüşdə də növbəti tədris ilində əcnəbi tələbələrin AzMİU-nu seçməsi üçün danışıqlar aparılıb, qarşılıqlı razılıq əldə olunub, onlara universiteti tanıdan buklet və broşürlər paylanıb. Onu da qeyd edim ki, AzMİU əməkdaşlarının bu səfəri Türkiyənin yerli qəzet və saytlarında da işıqlandırılıb.

Bu il də həmin ənənəni davam etdirərək rəhbərlik etdiyim fakültənin əməkdaşları ilə birgə Türkiyə Respublikasına işgüzar səfərimiz olub. Ölkəmizin Qarsdakı Baş Konsulu Nuru Quliyev, İstanbul Şəhər Universiteti rəsmiləri ilə görüşlərimiz və onların bizə verdiyi dəstək sayəsində builki səfərimiz də məhsuldar keçib, səfər coğrafiyamız bir az da genişlənib. Ərzurumdan başlayaraq Trabzona, Ardahana qədər keçirilən görüşlərdə bizə, universitetimizə xüsusi marağın, diqqət və hörmətin şahidi olduq. Ərzurumda Ərzurum Liseyi, Ərzincanda Mərkəz Ərzincan Liseyi, Girəsunda Anadolu İmam Hatip Liseyi, Trabzonda Trabzon Məsləki Fənn Liseyi, Rizədə Ali Metin Kazancı Rize Liseyi, Artvində Kazim Karabəkir Artvin Anadolu Liseyi, Ardahanda Anadolu İmam Hatip Liseyində keçirilən görüşlərdə yuxarı sinif şagirdləri, eləcə də onların valideynləri yaxınlaşaraq təmsil etdiyimiz universitetlə daha yaxından maraqlanır, çoxsaylı suallar ünvanlayırdılar.

Universitetimizə əcnəbi tələbələrin cəlb olunması üçün hələ ki, qonşu ölkə Türkiyəyə üstünlük veririk. Düşünürük ki, ərazi, dil, məişət və mədəniyyət baxımından yaxınlığımız türklərin ölkəmizdə təhsil alması üçün münbit şərait vəd edir. Lakin hədəflərimiz böyükdür, yaxın gələcəkdə bu məsələdə coğrafiyamızı genişləndirmək, başqa ölkələrdən də tələbə cəlb etmək istiqamətində əlaqələr qurulmasına çalışacağıq.

# 763 müəllim müsahibə mərhələsində



## Nəticələr gələn həftə elan olunacaq

⇦ Əvvəli səh.1

**Ruhiyyə DAŞSALAHLI**

Ölkə üzrə belə müəllimlərin sayının 2 mindən çox olduğunu deyən nazirlik rəsmisinin sözlərinə görə, həmin müəllimlərin işə qəbulu prosesinin mərkəzləşmiş qaydada həyata keçirilməsi məqsədilə onların proqram təminatı vasitəsilə elektron qeydiyyatı aparılıb və müraciət edənlərin daimi əsaslarla işə qəbulu məsələsinə baxılması qərara alınıb: "Martın 29-dan aprelin 4-dək elektron qeydiyyat keçirilib. 2800-ə yaxın müəllim qeydiyyatdan keçib. Onlardan cəmi 763 nəfəri müsahibəyə dəvət olunub".

Müsahibələrin nəticələri gələn həftənin əvvəlində açıqlanacaq. Bu barədə hər bir namizədin şəxsi səhifəsinə məlumat yerləşdiriləcək.

E.Bağırovun sözlərinə görə, elektron qeydiyyatdan keçən, lakin müsahibə mərhələsinə dəvət olunmayan müəllimlərin də şəxsi səhifələrinə müsabiqənin bu mərhələsinə qatıla bilməmələrinin səbəbləri barədə məlumat yerləşdiriləcək. Həmin səbəblər nə ola bilər? E.Bağırovun sözlərinə görə, namizədin keçid balını toplamaması, çalışdığı müəssisələrdə kifayət qədər dərs yükünün olmaması həmin səbəblərdəndir.

### 10 nəfər müsahibəyə buraxılmadı

Müsahibənin ilk günündə dəvət olunan 450 müəllimdən 10 nəfəri müsahibəyə buraxılmayıb. E.Bağırov bunu belə izah edib: "Müəllimlərin işə qəbulu imtahanlarında iştirak edən namizədlərin təhsil sənədlərini sadəcə müsahibə mərhələsində əyani surətdə görə bilirik. Yəni, bu mərhələdə diplomların dövlət nümunəli olub-olmadığını, namizədlərin imtahan verdikləri fənlə ixtisasının uyğunluğunu müəyyənləşdiririk. Ona görə də bəzi namizədlərin qeyri-pedaqoji ixtisaslı olduğu, yaxud ixtisası üzrə deyil, başqa fəndən test imtahanına qatıldığı məhz bu mərhələdə üzə çıxır. Müsahibə mərhələsində hətta dövlət nümunəli olmayan təhsil sənədlərinə də rast gəlinir. Aşkar olunan belə namizədlər müsabiqədən kənarlaşdırılır".

Müddətsiz əmək müqaviləsi əsasında işə qəbul olunmaq istəyən müəllimlərin müsahibəsində də müsabiqədən kənarlaşdırılanlar olub: "10 nəfər artıq müsabiqədən kənarlaşdırılıb. Müəyyən edilib ki, ya test mərhələsində öz ixtisası üzrə iştirak etməyib, ya da təhsil sənədi pedaqoji ixtisaslı deyil. Bu da çox vaxt zərurətdən irəli gəlir. Məsələn, musiqi müəllimi çatışmayan rayonlarda təhsil şöbələri, tutaq ki, xalq çalğı alətləri ixtisası üzrə bitirən şəxsi məktəbə musiqi müəllimi kimi dəvət edirlər. Amma bu, o demək deyil ki, biz həmin şəxsi daimi işə götürə bilərik. Başa düşürük, kadr çatışmazlığı var. Zəruri ehtiyac olan müəssisələrdə eyni qrupa daxil olan ixtisaslar üzrə təhsil alan şəxslərin müddətli müqavilə ilə işə dəvət edilmələrinə icazə verilir. Amma belə şəxslərin iş yeri ümumtəhsil məktəbi yox, musiqi məktəbidir".

### Namizədlər həyəcanlı...

**Vüsal Babayev** Cəlilabad rayonunun Gülməmmədli kənd orta məktəbində 3 ildir ibtidai siniflərdə dərs keçir. Sinfində müasir dərsin bütün qaydalarına əməl etməyə çalışır. Dediyinə görə, buna nail olur da. Müsahibədə isə sadəcə pedaqoji fəaliyyətinə görə, ümumi dünyagörüşündən tutmuş psixoloji durumuna qədər bir çox meyarlar üzrə komissiya üzvlərinin süzgəcindən keçməli oldu. Dediyinə görə, sualların cavabını verib. Amma o, cavabların komissiya üzvlərini nə dərəcədə qane etdiyini gələn həftə nəticələr elan olunanda biləcək.



Vüsal Babayev



İradə Məmmədova



İlhamə Tanrıverdiyeva



Ayşə Zeynalova

**İradə Məmmədova** Bərdə Mollalı kənd orta məktəbində 1 ildir müddətli müqavilə ilə çalışır. Fiziki tərbiyə müəllimidir. Müsahibədəki həyəcanı gözlərindən oxunur. Ancaq özünü itirənə də oxşamır. Komissiya üzvlərinin diqqətini pozitivliyi ilə cəlb edib.

**İlhamə Tanrıverdiyeva** artıq 4 ildir ki, müəllim olmaq uğrunda mübarizə aparır. Hazırda Binəqədi rayonunun Biləcəri qəsəbəsindəki 314 nömrəli tam orta məktəbdə ibtidai sinif müəllimidir: "4 ildir ki, imtahan verirəm. Nəhayət, ötən il yaxşı nəticə göstərdim. Amma vakant yerlər şəraitimə uyğun olmadığına görə gedə bilmirdim. 314 nömrəli məktəb yaxınlığımızdadır. Ona görə müvəqqəti çalışdığım bu məktəbdə daimi əsaslarla işləmək istəyirəm. Düşünürəm ki, bu müsahibə də mənim üçün uğursuz nəticələnə bilər. Ancaq nəticədən asılı olmayaraq, mənim müsabiqənin təşkilinə olan münasibətim dəyişməyəcək. Müsahibə mərhələsində də, test mərhələsində olduğu kimi, hər hansı neqativ halla qarşılaşmadım. 4 ildir istəyimə çata bilmirəm. Ancaq bu, mənim öz günahımdır. İstədiyim yer üçün yetərli nəticə göstərə bilmirəm. Odur ki, namizədlərin heç kimə qulaq asmadan, ümidini itirmədən hazırlaşmalarını tövsiyə edirəm. Əmin olsunlar ki, əziyyətləri hədər getməyəcək".

Musiqi müəllimi **Ayşə Zeynalova** isə Goranboy rayonunda Sərxan Ocaqverdiyev adına Tatarlı kənd orta məktəbində bu tədris ilinin əvvəlindən dərs deyir: "Azərbaycanın musiqi mədəniyyətinə aid suallar verdilər. Üzeyir Hacıbəylinin yaradıcılığından soruşdular. Bacardığım qədər bütün suallara cavab verdim. Ümid edirəm cavablarım komissiyanı da qane edəcək".

### Komissiya üzvləri razıdır

Təhsil Nazirliyinin sektor müdiri **Hilal Salmanov** müsahibəyə dəvət edilən namizədlərin ümumi səviyyəsinin qaneedici olduğunu söyləyib. Onun sözlərinə görə, müəllim olmaq arzusunda olanlar komissiya tərəfindən 5 meyar üzrə qiymətləndirilir. Onların psixoloji durumu, ixtisas bilikləri, ünsiyyət bacarığı komissiya üzvlərinin verdiyi suallar əsasında qiymətləndirilir. Namizədlərin suallara rahat, həyəcansız cavab verməsi, müsahibənin şəffaf keçirilməsi üçün hər şərait yaradılıb: "Müşahidələrimiz göstərir ki, namizədlər hazırlıqlıdırlar. Xüsusən, ixtisasları ilə bağlı suallara daha yaxşı cavablar verirlər. Ucqar rayonlardan, hətta sərhəd bölgələrində yerləşən kənd məktəblərindən müsahibələrə qatılanlar oldu. Nəinki hazırlıqlı, həm də yenilikçi, pozitivliyi ilə seçilən gənclər diqqətimizi çəkdi. Fiziki tərbiyə müəllimlərindən birinin qızların idmana marağını artırmaq üçün məktəbdə həyata keçirdiyi tədbirləri təqdir etdik. Belə təşəbbüskar gənclərin sayı az deyil. Düşünürəm ki, getdikcə daha da artacaq".

# "Biz əsl tamaşa hazırlığı mərhələsindən keçmişik"




## *Könül Ələkbərova:* "Özümü peşəkar səhnədə oynamağa tam hazır hiss edirəm"

**Gülnarə İLHAM**

Könül kənardan sakit, sanki heç bir böyük iddiası olmayan, üzüyola insan təsəvvürü yaradır. Elə söhbətimizin sonunda bu müşahidələrimdə yanılmadığımı gördüm və xeyli təəccübləndim.

ADMİU SABAH qrupu Aktyor sənəti 4-cü kurs tələbələri ilə tanışlığımız davam edir. Budəfəki müsahibimiz Könül Ələkbərovadır.

1996-cı ildə Bakıda doğulub. Respublika İncəsənət Gimnaziyasını bitirib. Onun incəsənət yolunu özünün də dediyi kimi, valideynləri müəyyənləşdirib. Anası Könülü pianoçu görmək istəyib. Ona görə də elə ilk illərdən gimnaziyanın pianino sinfinə yazdırıb adını.

- Amma məktəbə ağlaya-ağlaya gedirdim. Heç həvəsim yox idi. Dərsə girmirdim. Artıq özümü dərk edəndə daha cəsarətli davranırdım. Nə istədiyimi özlüyümdə dəqiqləşdirmişdim. 6-7-ci siniflərdə oxuyanda qaçıb, aktyor qrupunun dərslərində otururdum. Çox istəyirdim, mənə diqqət etsinlər, içimdəki aktyorluq həvəsini kimsə görsün. Təsəvvür edin, bir gün çoxdan gözlədiyim hadisə baş verdi. Elə bil, bu, mənim şansım idi.

*- Danışsanız, məmnuniyyətlə dinləyərdim.*

- Deməli, məktəbdə Xocalı faciəsinin ildönümünə aid tədbir hazırlanırdı. Sinif yoldaşım yaxınlaşıb xəstələndiyini dedi. Xahiş etdi ki, onun yerinə üç bənd şeiri mən söyləyim. Bu təklifə böyük sevinclə razılıq verdim. Ondan sonra aktyorluq qrupunun müəllimləri də mənimlə maraqlanmağa başladılar. Sonrakı tədbirlərə də dəvət etdilər. Həmin illərdə həm də Azərbaycan Dövlət Uşaq Filarmoniyasında Oqtay Zülfüqarovun xor dərslərində iştirak edirdim.

*- Könül, sizə həsəd apardım. Bu qədər rəngarəng yaradıcı mühitin içində olmaq maraqlıdır.*

- Hə, düzdür. Elə mən də fərqli incəsənət sahələri ilə tanış olduqca ürəyimdə valideynlərimə qarşı minnətdarlıq hissi artır. Özümü rahat hiss edəcəyim ikinci belə məkan olmazdı mənim üçün. Hələ o zamanlar ADMİU-nun binasının qarşısından keçəndə fikirləşirdim ki, görəsən, buranın tələbəsi ola biləcəyəm. Özü də məni ən çox dəstəkləyən nənəm olub. Çünki dayım bu unversitetdə təhsilini yarımçıq qoyub, nənəmin onunla bağlı arzusu ürəyində qalıb. Hətta bəzən anam hansısa roluma etiraz edəndə, irad bildirəndə nənəm acıqlanır ki, qızla işin olmasın. O, bu sənəti seçib, imkan yarat özü qərar versin. Hansı rolda necə hərəkət etməlidir, necə davranmalıdır özü daha yaxşı bilir.

*- Məsələn, hansı obrazınıza irad bildirib ananız?*

- "Romeo və Cülyetta" tamaşasında Avara qız obrazını bəyənməyib, mənə yaraşdırmayıb. Amma mən bu obrazı sevərək canlandırmışam. Əslində, ilk obrazım "Dərviş Məstəli Şah" tamaşasında qulluqçu Xanpəri obrazıdır. Son hazırladığım "Ezop" tamaşasında yenə qulluqçu Melita obrazındayam.

*- Çox maraqlıdır, bayaqdan sadaladığınız tamaşaların heç birində əsas rollarda yoxsunuz. Bu, sizi narahat etmir ki?*

- Ümumiyyətlə, indiyə qədər hazırladığımız tamaşalarda siz dediyiniz kimi, ikinci dərəcəli obrazları canlandırsam da, tam səmimi deyim, heç vaxt kompleks hiss etməmişəm. Çünki mənə tapşırılan hər rola sırf sənət əsəri kimi yanaşmışam. Səhnəyə çıxanda hansı obrazda olduğum yox, oyunumu tamaşaçıya necə çatdırmağım maraqlıdır. Məncə, aktyorun peşəkarlığı məhz bu yanaşmadır.

*- Adətən bizdə aktyorlar hansı səpgidə obrazlarla yaradıcılığa başlayırsa, sonrakı rejissor təklifləri də məhz bu istiqamətdə olur. Yəni sənə qarşı da bu münasibətin olacağından narahat deyilsən?*

- Düz deyirsiniz. Bəli, bizim sənətdə bu fikir var. Amma mən hələ tələbəyəm. Qarşıda özümü təsdiq edəcəyim çox iş var. Düşünürəm ki, bu rollar haqqımda dediyiniz təəssüratları yaratmaz. Həm yeri gəlsə, mən də imtina etməyi bacarıram. Sevmədiyim obrazı oynamaram. Buna məni kim məcbur edə bilər ki *(gülür)*. Bu yaxınlarda diplom işində "Otello" tamaşasında Ofeliya obrazı mənə həvalə olunub. Yəni, baş rollardan biri. Hər halda öhdəsindən gələcəyimə inanıram. Qrup rəhbərimiz, Əməkdar artist Nofəl Vəliyevin bizə həmişə çox dəyərli məsləhətləri olur. Ən xoşuma gələn sözü budur ki, aktyorun uğurunun, oyununun son pilləsi yoxdur. Çünki aktyor həmişə fərqli insan xarakterləri canlandırır. Deməli, hər dəfə yeni təcrübə qazanır və təkmilləşir. Bu proses aktyorun yaradıcılığının ən son anına qədər davam edir.

*- SABAH qrupunun tələbəsi olmaq nə qazandırıb sizə?*

- SABAH qrupuna daxil olandan sonra daha çox nailiyyət əldə etdim. İlk kurslarda bizə təlim keçmək üçün Amerikadan Bond Küçə Teatrı (Bond Street Theatre) dəvət olunmuşdu. Bir həftəlik təlimdən sonra tələbələr arasında seçim etməli idilər. Sosial mövzuda tamaşa hazırlamaq tapşırılmışdı. Sonuncu gün səkkiz tələbə seçdiklərini açıqladılar. Adımın o siyahıda olduğunu eşidəndə sevincimdən yerəgöyə sığmırdım. Axı tələbə kimi ilk böyük uğurum idi. İşin ən maraqlı tərəfi bundan sonra başladı. Biz növbəti bir həftə ərzində tamaşanı hazırlayaraq, həmin teatr heyəti ilə birgə regionlarda məktəblilər və gənclərə nümayiş etdirdik. Məhz bundan sonra özümə güvənim artdı. Peşəmi daha çox sevməyə başladım.

*- Bu il məzun olursunuz. Yəni, bu dörd ildə öyrəndikləriniz hazırda hər hansı teatr səhnəmizdə çıxışınız üçün sizə yetərlidirmi?*

- Əlbəttə, özümü peşəkar səhnədə oynamağa tam hazır hiss edirəm. Çünki artıq bu illər ərzində biz əsl tamaşa hazırlığı mərhələsindən keçmişik. Ona görə özümü nəinki Azərbaycan teatr səhnəsində, lap Hollivud kino məkanında da çox rahat təsəvvür edə bilirəm *(gülür)*.

*- Çox gözəl, tam da yaradıcı adama yaraşan özünəinam hissidir. İnamlı olmaq artıq uğurun ilk addımı deməkdir.*

- Əlbəttə, inamımı həmişə qorumağa çalışıram. Məqsədimə doğru inamla addımlamaq üçün özümə səbir və güc arzulayıram. Bəlkə də təəccüblənərsiniz, əslində, mən həm də aktyorluqdan daha çox radio aparıcısı olmağı arzulayıram. Hətta uşaqlıqda bacımla birlikdə jurnallardan xəbərləri seçib səsimizi telefona yazırdıq. Yanımızda balaca maqnitofonda kasetləri də oxudurduq arada. Yəni, əməlli-başlı radio ab-havası yaradırdıq.

*- Necə maraqlıdır. Həqiqətən, bu qədər fərqli arzunuzun olduğu ağlıma gəlməzdi. Amma görünür, tezliklə bir qərar verməli olacaqsınız. Əslində, aktyorluq və radio aparıcılığı bir-birindən o qədər də uzaq sahə sayılmaz.*

- Hə, elədir. Deyəsən, mənə təskinlik verirsiniz *(gülür)*.

*- Başqa şans qoymadınız ki məndə. Sizə böyük uğurlar diləyirəm. Hər şey könlünüzcə olsun.*

- Təşəkkür edirəm!

# "Heydər Əliyev və Azərbaycan mətbuatı"

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə Abşeron rayon Xırdalan şəhərində "Heydər Əliyev və Azərbaycan mətbuatı" mövzusunda mühazirə təşkil edib.

Tədbirdə rayon icra hakimiyyətinin, ictimai təşkilatların təmsilçiləri, təhsil işçiləri, bölgədəki media nümayəndələri və gənclər iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan fondun Abşeron rayon üzrə nümayəndəsi, Saray qəsəbə 3 nömrəli tam orta məktəbin direktoru, Əməkdar müəllim Təyyübə Hüseynova bildirib ki, ümummilli liderin anadan olmasının 95-ci ildönümü Abşeron rayonunda geniş şəkildə qeyd edilir, müxtəlif tədbirlər həyata keçirilir. Bilik Fondunun təşkilatçılığı ilə keçirilən bu mühazirə də həmin tədbirlərin tərkib hissəsidir.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin radio və televiziya kafedrasının müdiri, professor Allahverdi Məmmədli ümummilli liderin Azərbaycan mətbuatına münasibəti, mətbuatın inkişafındakı xidmətləri, jurnalistikaya və jurnalistlərə verdiyi dəstək barədə ətraflı məlumat verib. Qeyd edilib ki, müstəqillik illərində Azərbaycan mətbuatının formalaşması, mükəmməl qanunvericilik bazasının yaradılması görkəmli dövlət xadiminin adı ilə bağlıdır. Ulu öndərin ölkəyə rəhbərliyi dövründə MDB məkanında ilk dəfə Azərbaycanda senzura ləğv olunub, mətbuata dövlət dəstəyinin əsası qoyulub.

Fondun mətbuat katibi Ceyhun Musayev təmsil etdiyi qurumun təşkilatçılığı ilə keçirilən ümummilli lider Heydər Əliyevin 95 illiyinə həsr olunan tədbirlərdən söz açıb.

Sonra məruzə ətrafında fikir mübadiləsi aparılıb və verilən suallar cavablandırılıb.

**Aysel TAHİROVA,**
*Abşeron Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*




# "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi"

Göygöl Rayon Təhsil Şöbəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə Üçtəpə kənd tam orta məktəbində "Vətənpərvər gəncliyin dini radikalizmə qarşı mübarizəsi" adlı maarifləndirici tədbir keçirilib.

Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbirdə müvafiq qurumların əməkdaşları, məktəbin müəllim və şagirdləri iştirak edib.

Tədbirin keçirilməsində məqsəd şagirdlərdə vətənpərvərlik hissini yüksəltmək, Vətəni, torpağı sevmək, ona bağlılıq hisslərini aşılamaqdır.

Tədbirdə çıxış edənlər 2016-cı ilin aprel ayında Vətən uğrunda canlarından keçən şəhidlərimiz haqqında geniş məlumat verib. Aprel döyüşlərində Azərbaycan Ordusunun erməni təxribatının qarşısını alaraq tarixi qələbəyə imza atması ilə bağlı şagirdlərlə müzakirə aparılıb. Döyüşlərdə şücaətlik göstərən şəhidlərimizin həyatından bəhs edən videoçarx göstərilib.

Tədbirin sonunda iştirakçılara "Şəhadət" sənədli filmi nümayiş etdirilib.

**Raminə MƏMMƏDOVA,**
*Göygöl Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Pedaqoji əməkdaşlıq çərçivəsində keçirilən tədbirlər davam etdirilir

Növbəti görüş Zaqatala rayon Humanitar fənlər təmayüllü gimnaziyada keçirilib. Görüşdə qonaq qismində Zaqatala və Balakən Rayon Təhsil şöbələrinin əməkdaşları, məktəb direktorları və müəllimlər iştirak ediblər.

Görüş zamanı öncə məktəblə ümumi tanışlıq olub. Sonra qonaqlar tarix və ibtidai sinif müəllimlərinin keçdiyi "açıq dərs"lərdə iştirak ediblər. Daha sonra isə "dəyirmi masa"da məktəb rəhbərləri və müəllimlər ümumtəhsillə bağlı aktual məsələlər, yeniliklər və problemlərə dair müzakirə aparıblar.

Pedaqoji əməkdaşlıq çərçivəsində tədbirlərin keçirilməsində məqsəd qabaqcıl pedaqoji təcrübə nümunələrinin öyrənilməsi, müəllim və məktəb rəhbərlərinin nümunəvi iş üsulları və metodları ilə tanışlıq və qarşılıqlı pedaqoji dəstək tədbirlərinin həyata keçirilməsidir.

**Vüsalə BƏDƏLOVA,**
*Zaqatala Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Özünü inkişaf etdirmə müəllim peşəsini seçənlərin əsas hədəflərindən biri olmalıdır"

## *Ramin Dəmirov:* "Uşaqlarla işləmək məndə bu işə böyük həvəs və sevgi yaradıb"

**Ramin Dəmirov 2012-ci ildə Lənkəran Dövlət Universitetinin tarix fakültəsini bitirib. Müəllimlik fəaliyyətinə 2012-ci ildə İmişli rayon Rəsullu kənd tam orta məktəbində başlayıb. Müəllimlərin diaqnostik qiymətləndirilməsində 51 bal toplayıb. Gənc müəllim söhbətə bu peşəyə olan sevgisi ilə körpü saldı.**



*- Ramin müəllim, belə bir ənənəvi sualımız var. Niyə müəllim olmağa qərar verdiniz?*

- Lap uşaq yaşlarımdan idmançı olmaq istəyirdim. Uzun illər bu istəklə yaşamışam. 9-cu sinifdə oxuyanda ali təhsili müəyyən, peşə seçimini etmək lazım gəldi. Tarix fənninə isə həmişə böyük marağım var idi. Bu peşəni seçməkdə tarix müəllimi olan əmim Vəkil Dəmirovun çox böyük təsiri oldu. Peşə seçimimdə ən uğurlu və ən düzgün yol göstərdi mənə. İndi isə bu peşəyə sahib olduğum üçün çox xoşbəxtəm.

Qeyd edim ki, tarixin müxtəlif zamanlarında olmuş hadisələri öyrənib təhlil etmək, müstəqil qərarlar çıxarmaq və eyni zamanda oxuduğum tarixi əsərlərdən zövq almağıma görə bu fənni sevirəm. Uşaqlıq illərindən bu fənnə olan böyük sevgimdən tarixçi olmaq istəmişəm. Başqa fənlərə marağım olsa da, o fənləri tarix qədər öyrənə bilməmişəm.

Müəllim işi çox zəhmət tələb edən, fəxr edilən bir işdir. Artıq hiss edirəm ki, uşaqlarla işləmək məndə bu işə böyük həvəs və sevgi yaradıb.

*- Şagirdləriniz bu fənni sevirlərmi? Əgər şagirdləriniz "nəyə görə tarixi öyrənməliyik?" soruşsalar, cavabınız nə olardı?*

- Bəli, bu fənni sevən şagirdlərim var. Sualın ikinci hissəsi ilə bağlı deyərdim ki, keçmişi bilmədən bu günü və gələcəyi qurmaq olmaz. Tarixi öyrənməklə onlar başqalarının səhvlərindən nəticə çıxarmağı biləcək. Şagirdlərə elə cavabım bu olardı. Əlavə olaraq onu da deyim ki, hər bir müəllim öz fənnini şagirdlərə sevdirməlidir. Elə fəaliyyətimin ilk günlərindən bu fikri əsas tutmuşam. Şagirdlərin demək olar ki, elə hamısı ölkəmizin, vətənimizin tarixini öyrənməyə daha çox maraq göstərirlər. Gələcəyin tarixçiləri, məncə, indiki nəsildən yetişməlidir.

*- Lazım olan nəticəni əldə etmək üçün şagirdlərdə hansı keyfiyyətləri inkişaf etdirmək lazımdır?*

- Fikrimcə, şagirdlərdə obrazlı düşünmə, möhkəm yaddaş, ixtiraçılıq və qeyri-standart qərarların qəbul edilməsi kimi keyfiyyətləri inkişaf etdirmək lazımdır. Bundan başqa, onlara psixologiya, iqtisadiyyat, siyasi və s. elmləri də öyrətmək məqsədəuyğundur.

*- Bu gün əldə etdiyiniz nəticəyə hansı yolu keçərək gəldiniz?*

- Bu nəticəyə daha çox mütailə etmək və daha çox çalışmaqla gəldim. Elə bir gün olmaz ki, həmin gün mütailə etməyim. İnternet üzərindən məlumatlara baxsam da, əsas üstünlüyü kitablara verirəm. Fənni yaxşı öyrətməyin ən əsas amilini mütaliədə görürəm.

*- Tarixin tədrisində ən çox xoşladığınız və şagirdlər tərəfindən çətin mənimsənilən mövzular varmı?*

- Mənim ən çox xoşladığım bölmə Azərbaycan Səfəvilər dövləti bölməsidir. Şagirdlərin isə ümumi tarix fənnindən Çin və Yaponiya ilə yanaşı, dünya xalqlarının mədəniyyəti mövzularını öyrənməkdə müəyyən çətinlikləri olur.

*- Siz tarix dərsliyi yazsaydınız, hansı mövzuları daha çox əhatə edərdiniz?*

- Həm Azərbaycan tarixində, həm də ümumi tarixdə türk xalqları ilə bağlı mövzuların daha geniş yazılmasına diqqəti çox ayırardım.

*- Şagirdləriniz suallarınıza və ya tapşırıqlarınıza standartdan kənar cavab verəndə buna münasibətiniz necə olur?*

- Bu kimi halları, əlavə olaraq şagirdlər öz əsaslı fikirləri ilə mövqelərini bildirəndə onları alqışlayıram. Belə hallarda şagirdlərimi yüksək qiymətləndirirəm. Bunun üçün onlara dərslikdən başqa, əlavə məlumatları və ədəbiyyatları oxumaq lazımdır. Bəzi tarixi məlumatları daha dərindən öyrənmək üçün isə özüm şagirdlərə əlavə ədəbiyyatlar verirəm. Bu da onlarda fənnə marağı artırır.

*- Valideynlərin övladlarının təhsilinə münasibətləri necə olmalıdır? Bunu müəllim baxışı ilə necə dəyərləndirərdiniz?*

- Burda belə bir məktəb-şagird-valideyn mexanizmi işləməlidir. Bu əlaqədə əməkdaşlıq və anlaşma mütləqdir. Həmişə şagirdlərdən daha çox oxumağı, öyrənməyi tələb etmək lazımdır. Valideynlər övladlarının gündəlik tapşırıqları yerinə yetirmələrini nəzarətdə saxlamalıdırlar. Müvəffəqiyyət - böyük bir zəhmətin bəhrəsidir. Hər şeyə bir anda nail olmaq mümkün deyil. Valideynlər övladlarının uğurlarını onların təhsilində görməlidirlər.

*- Sizin çox yaxşı bir pedaqoji kollektiviniz var. Müəllimlərlə ünsiyyətiniz necədir, onlarla təcrübə mübadiləsi edirsinizmi?*

- Təbii ki, pedaqoji şura ilə yanaşı, məktəbimizdə fənn metodbirləşmələri var. Elə mən özüm fənmetodbirləşmə rəhbəriyəm. Tez-tez Azərbaycan dili və ədəbiyyatı, coğrafiya müəllimləri ilə birgə maraqlı layihələr hazırlayırıq. Elə bu günlərdə məktəbimizin yuxarı sinif şagirdlərindən təşkil olunmuş coğrafiyaçılar və tarixçilər komandaları arasında bilik yarışı keçirildi.

*- Ramin müəllim, bu peşənin inkişafı və gələcək perspektivlər haqqında nə deyərdiniz?*

- Gələcəyin ixtisasları və peşələri ilə bağlı həm çap, həm də online mətbuatda tez-tez müxtəlif məlumatlar dərc olunur. Güman edirəm ki, informasiya cəmiyyətində müasir uşaqlarla işləmək üçün yeni formalar, yeni üsullar icad olunacaq. Amma heç bir zaman müəllimləri robot-müəllimlər əvəz etməyəcək. Mükəmməl insanı yetişdirmək üçün həmişə cəmiyyətin müəllimə ehtiyacı olacaq.

*- Bu peşəni seçmək istəyənlərə nə tövsiyə edərdiniz?*

- Bu peşəni ağıllı, enerjili, uşaqlara və tədris edəcəyi fənnə dərin məhəbbəti olanların seçməsini tövsiyə edərdim. Fikrimcə, özünü inkişaf etdirmək arzusunun olması da bu peşədə ən vacib məsələlərdən biridir. Özünü inkişaf etdirmə bu peşəni seçənlərin hədəflərindən biri olmalıdır.

**Vilayət ƏLİYEV,**
*İmişli Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Uğur sizinlə olsun

Fənn olimpiadalarının Respublika mərhələsinin yarımfinal turunun nəticələri elan olunub. "Respublika fənn olimpiadalarının təşkili və keçirilməsi Qaydaları"na əsasən Respublika mərhələsinin final turuna müvafiq fənn və sinif üzrə ən yaxşı nəticə göstərən 20 şagird və siyahı üzrə 20-ci şəxslə eyni bal yığan məktəblilər dəvət olunurlar. Qax rayonu üzrə iki nəfər şagird final turuna vəsiqə qazanıb. Onlardan biri Şahidov Heydər Samir oğludur. Samir Qax şəhər 5 nömrəli tam orta məktəbin XI sinif şagirdidir. O, fənn olimpiadalarının Respublika mərhələsinin yarımfinal turunda coğrafiya fənni üzrə iştirak edərək təklif olunan 25 sualdan 24-nü doğru cavablandırıb.

Digər finalçı şagirdimiz isə Həlimə Məmmədzadə Qaşqaçay kənd tam orta məktəbinin IX sinif şagirdidir. O, yarımfinal turuna kimya fənni üzrə qatılaraq 25 sualdan 16-nı cavablandıra bilib.

Fənn olimpiadalarının Respublika mərhələsinin final turu 4-6 may tarixlərində Bakı şəhərində keçiriləcəkdir. Şagirdlərimizə uğurlar arzulayırıq.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# Cümhuriyyətin 100 illik yubileyinə həsr olunmuş silsilə tədbirlər

Şabran rayon ümumtəhsil məktəblərində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə silsilə tədbirlər keçirilir.

Tədbirlər "dəyirmi masa", elmi-praktik konfrans, rəsm, inşa müsabiqələri, müxtəlif idman yarışları, əl işləri sərgiləri, fləşmoblar və s. formatlarda təşkil olunur.

Tədbirlərdə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, ölkəmizin şanlı tarixinin bu mərhələsi və bu tarixi yazan görkəmli şəxsiyyətlər barədə məktəblilərə ətraflı məlumatlar verilib. Silsilə tədbirlər çərçivəsində şagirdlərdə vətənpərvərlik ruhunun yüksəldilməsi və tariximizin gənc nəslin yaddaşına həkk olunması işi həyata keçirilib.

**Gülər HÜSEYNOVA,**
*Şabran Rayon Təhsil Şöbəsinin ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

# "Fənn kurikulumlarının tətbiqi" mövzusunda seminar

Bərdə rayon Şorəlli kənd tam orta məktəbində "Fənn kurikulumlarının tətbiqi" mövzusunda praktik seminar keçirilib. Tədbirdə rayon təhsil şöbəsinin nümayəndələri, məktəb direktorları, qabaqcıl müəllimlər və digər şəxslər iştirak ediblər. Öncə iştirakçılar məktəbin foyesində şagirdlərin əl işlərindən ibarət sərgiyə baxıblar. Sonra məktəbin 4 fənn müəlliminin "açıq dərs"ləri dinlənilib.

Məktəbin müəllimlərindən Raya Pənahova, Nailə Sadıqova, Elnarə Hüseynova və Bahar Dadaşovanın keçdikləri "açıq dərs"lər iştirakçıları razı salıb. Müasir təlim metodları ilə keçilən dərslər mütəxəssislər tərəfindən yüksək qiymətləndirilib.

Tədbirdə RTŞ-nin müdiri Rzaqulu Şərifov, metodkabinetin müdiri Xuraman Qurbanova, Şorəlli kənd tam orta məktəbinin direktoru Gülnarə Əliyeva çıxış ediblər.

**Səhifəni hazırladı:** *Şakir CƏFƏROV*

Azərbaycan Respublikası Təhsil Nazirliyi

# Gəncə Dövlət Universiteti

Aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

**Kafedralar üzrə boş olan vəzifələr:**

1. İdarəetmə - kafedra müdiri; dosent, 1 yer; müəllim, 1 yer;
2. Fiziki tərbiyə, gənclərin çağırışaqədərki hazırlığı və mülki müdafiə - kafedra müdiri; baş müəllim, 2 yer;
3. Fizika - kafedra müdiri; dosent, 3 yer;
4. Ümumi tarix - kafedra müdiri; baş müəllim, 1 yer;
5. Azərbaycan və dünya ədəbiyyatı - kafedra müdiri; dosent, 1 yer;
6. Sosial fənlər - kafedra müdiri;
7. Riyazi analiz - kafedra müdiri;
8. Psixologiya - dosent, 1 yer; baş müəllim, 2 yer;
9. İqtisadiyyat - baş müəllim, 3 yer;
10. Təsviri incəsənət - dosent, 1 yer;
11. Praktik xarici dillər - dosent, 1 yer; baş müəllim, 1 yer;
12. Kimya - baş müəllim, 1 yer; 0,75 ştat;
13. Azərbaycan tarixi - baş müəllim, 2 yer;
14. Rus dili - baş müəllim, 3 yer;
15. Ümumi riyaziyyat - dosent, 2 yer;
16. Coğrafiya - dosent, 2 yer; baş müəllim, 1 yer;
17. Anatomiya, fiziologiya və zoologiya - baş müəllim, 2 yer;
18. Fransız dili - baş müəllim, 1 yer;
19. Botanika - baş müəllim, 1 yer;
20. Azərbaycan dili - dosent, 1 yer;
21. Ümumi pedaqogika - baş müəllim, 1 yer;
22. Bədən tərbiyəsi və idman - baş müəllim, 1 yer.

*Müsabiqədə iştirak etmək üçün sənədlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin 15.11.2017-ci il tarixli 5/5 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması" və 401 saylı 07.08.1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim vəzifələrinin tutulması qaydaları haqqında" Əsasnaməyə uyğun olaraq elan olunduğu gündən 1 ay müddətində qəbul edilir.*

**Ünvan:** AZ 2000, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 459.
Gəncə Dövlət Universiteti, əsas bina (I)
**Telefon:** (022) 256-73-13; (022) 256-22-69

**REKTORLUQ**


## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Nurəddin Heydərov 538-21-66

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 4866, **Sifariş** 1245

**Məsul növbətçi:** N.Rəhimov


# "Gəl sevək bu həyatı"

## Azərbaycan Dövlət Pedaqoji Kollecində İslam Səfərlinin həyat və yaradıcılığına həsr olunmuş tədbir



**Şakir CƏFƏROV**

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində tanınmış şair İslam Səfərlinin həyat və yaradıcılığına həsr olunmuş "Gəl sevək bu həyatı" adlı tədbir keçirilib.

Öncə tədbirin təşkilatçısı, kollecin Azərbaycan dili və ədəbiyyat müəllimi, filologiya üzrə fəlsəfə doktoru Vəfa Yunusova şair İslam Səfərli haqqında məlumat verib. Bildirib ki, Naxçıvandakı 1 nömrəli məktəbi (hazırda məktəb şairin adını daşıyır) bitirdikdən sonra şair könüllü olaraq Böyük Vətən müharibəsində iştirak etmişdir. Müharibə illərində qələmə aldığı "Ordumuza ithaf", "Ədəbi gənclik", "Onüçlər", "Əmin ol ata!", "Qoşa söyüd", iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun əziz xatirəsinə həsr etdiyi "Təzə çiçəklər", "Üçüncü hərb istəmirik" və s. şeirləri onun hafizəsində buraxdığı dərin izlərin təsirindən yaranmışdır. Müharibə mövzusu gənc şairin poemalarında da öz əksini tapmışdır. "Sınaq gecəsi", "Çex qızının məhəbbəti", "Yaralı nəğmə", "Qığılcım", "Fırtınalar adası", "Dəfinə", "Ələsgər", "Birinci katib", "İnsan ləpiri", "İki bacı", "Qeyrət qapısı", "Abşeron yatağı" və s. biri-birindən maraqlı poemaları diqqəti çəkmiş, yaddaqalan olmuşdur.

İslam Səfərli dramaturq kimi də bir sıra əsər yazaraq ədəbiyyatımıza töhfə vermişdir. "Göz həkimi", "Ana ürəyi", "Yol ayrıcı", "Xeyir və Şər", "Dədəgünəş əfsanəsi" və s. kimi sənət əsərləri müxtəlif vaxtlarda, ayrı-ayrı bölgələrdə tamaşaya qoyulmuş, tamaşaçı rəğbəti qazanmışdır.

ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin direktoru, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov tədbirin tərbiyəvi əhəmiyyətindən danışaraq, şairin ailə üzvlərinin rəhbərlik etdiyi kollecdə tələbələrlə görüşməsindən məmnun olduqlarını bildirib.

Tədbirdə iştirak edən şairin oğlu, tanınmış rəssam İlham Səfərli, nəvəsi İslam Səfərli, yazıçı Əlfi Qasımovun qızı Gülnar Verdiyeva onunla bağlı xoş xatirələrindən söz açıblar.

Tədbirdə İslam Səfərlinin həyat və yaradıcılığına həsr olunmuş videoçarx göstərilib. Kollecin rəqs ansamblının üzvləri tədbirdə rəqs edib, mahnı oxuyub və ədəbi- bədii kompozisiya nümayiş etdiriblər.

Sonda İlham Səfərli belə bir tədbirin təşkilinə görə ailə üzvləri adından kollecin direktoru Qulu Novruzova minnətdarlığını bildirib.

# İnsanların sevimli mahnıları onların DNT-nə yazılacaq

**Yusif ƏLİYEV**

Bu gün informasiyanın xarici sərt disklərdən bulud xidmətlərinə qədər müxtəlif yazı metodlarında saxlanılmasının bir çox üsulları mövcuddur. Lakin texnologiyaların inkişafı ilə əlaqədar faylların həcminin böyüməsi məlumatların daha çox tutuma malik daşıyıcılarda saxlanılmasını tələb edir.

"Twist Bioscience" şirkətləri DNT-yə mahnı yazmağa müvəffəq olublar. Şirkət nümayəndələrinin bildirdiyinə görə, onlar istənilən mahnını populyarlıq qazanan yeni formatda saxlamaq üçün DNT-yə yazmağa hazırdırlar.

Qeyd edək ki, startap DNT-nin süni sapları və süni genlərin çapı ilə məşğul olur. Həb ölçüsündə olan DNT informasiya daşıyıcısı bir neçə terabayt həcmə malik sərt diskə nisbətən daha çox məlumat saxlaya bilər.

**www.hi-news.ru** saytının məlumatına görə, "Twist Bioscience" artıq 259 milyon dollarlıq investisiya cəlb edib. İndi istənilən şəxs şirkətin xidmətlərindən yararlana bilər. Lakin bu xidmətdən istifadə kifayət qədər yüksək məbləğ tələb edir. Məsələn, 12 meqabayt həcmli sevimli mahnısını DNT-yə yükləmək istəyənlər təxminən 100 min ABŞ dolları xərcləməli olacaqlar.

# Etibarsız sayılır

**Bakı şəhər** 238 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Kazımova Sevinc Yaşar qızına verilmiş A-161236 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Ağayeva Bahar Telman qızına verilmiş B-184365 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam 50 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1984-cü ildə İmanov İbrahim Yunis oğluna verilmiş Г-697864 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1988-ci ildə İsmayılova Zöhrə Ramiz qızına verilmiş ПВ-009597 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci** tərəfindən 2005-ci ildə Səmədova Gülarə Nəsib qızına verilmiş BB-II-025954 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 21 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyeva Səriyə Həsən qızına verilmiş B-464999 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**10 nömrəli Bakı Texniki Peşə Məktəbi** tərəfindən 1994-cü ildə Qədimov Anar Aydın oğluna verilmiş Z-0967009 nömrəli diplom və attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1990-cı ildə Rəhimov Natiq Zabit oğluna verilmiş TB-I-088245 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** S.Vurğun adına şəhər tam orta məktəbini 2017-ci ildə bitirmiş Məmmədov Nail Şirzad oğluna verilmiş E-061665 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Şuşa Humanitar Kolleci** tərəfindən 2014-cü ildə İlyasova Arzu İlham qızına verilmiş AA-042139 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2012-ci ildə Zeynalova Münəvvər Ağa qızına verilmiş B-258883 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 2 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Hümbətov İlqar Arif oğluna verilmiş A-195941 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qızlar Universiteti** tərəfindən 2014-cü ildə Babayeva İradə Eyvaz qızına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Bakı 1 nömrəli Tibb Məktəbi** tərəfindən 1998-ci ildə Abbasova Nəzakət Yavər qızına verilmiş AB-II-036634 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayonu** Xudat şəhər 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Həmidli Təbriz Həmid oğluna verilmiş A-220101 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 1 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Kərimov Elşən Müzəffər oğluna verilmiş B-621483 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 189 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Ələkbərova Elina Firuz qızına verilmiş B-009114 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**ADPU (keçmiş Azərbaycan Müəllimlər İnstitutu) Quba filialını** 2011-ci ildə bitirmiş Davidova (Məmmədova) Aynur Novruz qızına verilmiş B-200673 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qusar rayonu** Əcəxur kənd tam orta məktəbini 1984-cü ildə bitirmiş Məclumov Ramiz Məclum oğluna verilmiş Aİ-978122 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2014-cü ildə Mehtiyev Fərid Rizvan oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 91 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Bayramova Rüxsarə Çingiz qızına verilmiş B-301985 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə İsmayılova Nərmin Kamran qızına verilmiş A-101980 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Seyidova Samirə Mirhəşim qızına verilmiş 297324 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri İnstitutu** tərəfindən 1992-ci ildə Cəlilov Faiq Ziyafəddin oğluna verilmiş ЦВ-847728 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Zamanova Elza Naib qızına verilmiş AN-307250 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2005-ci ildə Əhmədova Şəbnəm Xələddin qızına verilmiş B-052908 nömrəli fərqlənmə bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayonu** Ağdaş kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Musayeva Əminə Malik qızına verilmiş 007350 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Sədərək rayon Sədərək kənd 1 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Səfərova Minurə Əsgər qızına verilmiş A-286851 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayonu** Şüvi kənd tam orta məktəbini 1993-cü ildə bitirmiş Əliyev Vasif Şakir oğluna verilmiş A-160709 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş şəhər** Nizami adına şəhər tam orta məktəbini 2004-cü ildə bitirmiş Əhmədov Şahin Namizəd oğluna verilmiş B-088899 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdaş rayonu** Qumlaq kənd tam orta məktəbinin IX sinfini 2011-ci ildə bitirmiş Abbasova Səkinə İlqar qızına verilmiş A-007418 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Qəbələ rayonu** Bum qəsəbə tam orta məktəbini 2000-ci ildə bitirmiş Ebişova (Məmmədova) İntizar Namiq qızına verilmiş A-404172 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi şəhər** 5 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Məmmədova Günel Xəmməd qızına verilmiş B-282122 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Qubadlı rayonu** Hal kənd tam orta məktəbini 2008-ci ildə bitirmiş Şitinova Aysel Məhəmməd qızına verilmiş B-568882 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 6 nömrəli tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Hüseynov Tərlan Tahir oğluna verilmiş B-672615 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 132 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Xudiyev Vüqar Əli oğluna verilmiş A-139242 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Zəngilan rayon** 26 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əsgərov Məmmədxan Eldar oğluna verilmiş B-558211 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2016-cı ildə Bədəlli Natiq Zaur oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** nəzdində Azərbaycan Maliyyə İqtisad Kolleci tərəfindən 2017-ci ildə Əmranova Göyçək Niyaməddin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Milli Konservatoriyası** tərkibində Musiqi Kolleci tərəfindən 2008-ci ildə Abdullayeva Aytac Əkbər qızına verilmiş AA-014671 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayonu** Padar kənd tam orta məktəbini 1977-ci ildə bitirmiş İbrahimova Nərgiz Ənvər qızına verilmiş A-087404 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 1992-ci ildə Əmiraslanova Reyhan İlyas qızına verilmiş ЦВ-832585 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**BÖTL Əli Bayramlı İqtisadiyyat filialını** 1997-ci ildə bitirmiş Əhədov Cavid Zabil oğluna verilmiş A-580290 nömrəli attestat tapıldığı üçün etibarlı sayılır.

**Bakı şəhər** 214 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Yakovlev Ruslan Aleksandroviçə verilmiş A-585394 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Yardımlı rayonu** Hamarkənd kənd tam orta məktəbini 1999-cu ildə bitirmiş Məlikova Gülafət Fəxrəddin qızına verilmiş AN-051350 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2001-ci ildə Yusubov Barat Vəliş oğluna verilmiş AB-I-077501 nömrəli diplom və 2002-ci ildə verilmiş 000535 nömrəli internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 152 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Səfərova Səbiyyə Şahsuvar qızına verilmiş B-160653 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Rüstəmov Mənsur Xosrov oğluna verilmiş B-281245 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Culfa rayon Camaldın kənd tam orta məktəbini 1992-ci ildə bitirmiş Mehdiyeva Təranə Əlirza qızına verilmiş A-167749 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu** tərəfindən 1982-ci ildə Məhərrəmov Ocaqverdi Calal oğluna verilmiş HB-020906 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan MR** Ordubad Qız Liseyini 2005-ci ildə bitirmiş Cəfərova Könül Vidadi qızına verilmiş A-000638 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 228 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Cahangirova Arzu Salam qızına verilmiş B-497387 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 175 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Nəbiyev Emil Sahib oğluna verilmiş B-002607 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2017-ci ildə İsmayılova Əsmər Ələddin qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 201 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Ağayeva Aynur Xanış qızına verilmiş A-012550 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Xoreoqrafiya Akademiyası** tərəfindən 2017-ci ildə Soltanova Nigar Yusif qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 167 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Mahmudzadə Cəmil Mahmud oğluna verilmiş A-080548 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün** 1 nömrəli tam orta internat məktəbini 1998-ci ildə bitirmiş Nəsirov Rəşad Vahid oğluna verilmiş A-256785 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Məmmədov İsmayıl Amin oğluna verilmiş A-261080 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Mingəçevir şəhər** 8 nömrəli tam orta məktəbi 1999-cu ildə bitirmiş Həsənova İlahə İnqilab qızına verilmiş A-369279 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bakı İdarəetmə və Texnologiya Kollecinin kollektivi kollecin direktoru

**VARİS ALLAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.



# İnklüziv təhsilin Qərb təcrübəsi

⇦ Əvvəli səh.1

## Nailiyyətlər qədər problemlər də var

**Rüstəm QARAXANLI**

Araşdırmalar göstərir ki, inklüziv təhsil zamanı müəllimlərə olan tələblər olduqca yüksəkdir, belə ki, onlar həm adi, həm də məhdudiyyəti olan uşaqlarla keyfiyyətli tədris prosesini həyata keçirməyi bacarmalıdırlar.

Hazırda ABŞ-da 1990-cı ildə qəbul edilmiş “Məhdudiyyəti olan şəxslərin təhsilinə dair” Akt fəaliyyətdədir. Bu sənədə görə, hər bir belə uşaq milli təhsil sisteminin müəssisələrində pulsuz təhsillə təmin olunmalıdır. Valideynlərin məktəblərdən övladlarının təhsilinə dair sənəd tələb etmək hüquqları var. Qanuna görə, məhdudiyyəti olan uşaqlar nəinki təhsil, habelə psixoloq, loqoped, audioloji müayinə, nəqliyyat yardımı ala bilərlər.

**FRANSA**da yanaşma bundan ibarətdir ki, kütləvi məktəblərə məhdudiyyəti olan maksimum dərəcədə çox uşaq cəlb edilsin. Bu proses 4 variant əsasında reallaşdırılır:

1. Uşaq adi məktəbdə adi proqram əsasında təhsil alır, ancaq əlavə olaraq tibbi prosedur və tərbiyəvi xarakterli aksiyalarda iştirak edir;

2. Uşaq adi məktəblərdə oxumaqla yanaşı, əlavə proqram əsasında da təhsil alır. Məsələn, görmə qabiliyyətində problem olan uşaq əlavə korreksiyalı-inkişafetdirici proqramdan yararlanır;

3. Əsas vaxtda uşaq xüsusi siniflərdə xüsusi proqram əsasında təhsil alır, qalan vaxtı isə adi siniflərdə həmyaşıdları ilə birlikdə olur;

4. Uşaq yalnız xüsusi sinifdə xüsusi proqram əsasında təhsil alır. Ancaq digər uşaqlarla birlikdə səhər yeməyi, müxtəlif idman tədbirlərində iştirak edə bilər.

Ötən əsrin 70-ci illərindən etibarən **İTALİYA**nın bütün xüsusi məktəb və sinifləri ümumi təhsil sisteminə inteqrasiya olunub. Hazırda məhdudiyyəti olan uşaqların 99%-i adi məktəblərdə digər həmyaşıdları ilə birlikdə təhsil alır. Belə uşağın adi sinifdə müəllimdən lazımi yardımı alması üçün onun məhdudiyyətli şəxs kimi qeydiyyatdan keçməsi tələb olunur. Bu qeydiyyat valideynin razılığı ilə edilir və cəmi birillik müddətə imzalanır. Vaxt başa çatdıqda onun uzadılması, yaxud xüsusi yardımın başa çatmasına dair qərar qəbul edilir.

**Hazırda məhdudiyyəti olan uşaqların 99%-i adi məktəblərdə digər həmyaşıdları ilə birlikdə təhsil alır. Belə uşağın adi sinifdə müəllimdən lazımi yardımı alması üçün onun məhdudiyyətli şəxs kimi qeydiyyatdan keçməsi tələb olunur. Ancaq İtaliyada məhdudiyyəti olan uşaqların ümumi məktəblərə cəlb olunması istiqamətində müəyyən problemlər də mövcuddur.**

Ancaq İtaliyada məhdudiyyəti olan uşaqların ümumi məktəblərə cəlb olunması istiqamətində müəyyən problemlər də mövcuddur. Məsələ burasındadır ki, dövlətin nəzdində olan xüsusi məktəblərin sayı azaldıqca, özəl xüsusi məktəblərdə məhdudiyyəti olan uşaqların sayında artım müşahidə olunur. Təhsil inteqrasiyasının inkişafı baxımından ölkənin müxtəlif bölgələri arasında ciddi fərqlər var. Çünki dövlət tərəfindən koordinasiya prosesi minimum səviyyədədir. Bir sıra müəllimlər inteqrasiyalı təhsili qəbul etsələr də, tədris prosesini köməkçi müəllimlərin üzərinə yıxırlar, yaxud belə uşaqların sinifdən kənar təhsil almalarına çalışırlar.

İtaliya təhsil sistemində inteqrasiyalı təhsilin inkişafına dair problemlərin bir sıra səbəbləri var. Belə ki, proses həyata keçirilmədən öncə lazımi sayda mütəxəssis olmayıb. Üstəgəl, regionların fərqli ehtiyac və spesifikliyi lazımi dərəcədə araşdırılmayıb. Ümumtəhsil məktəblərində işləyən müəllimlərin bu istiqamətdə xüsusi ixtisasartırma tədbirlərindən keçmə imkanları məhdudlaşdırılıb. Məsələn, müəllimlərin ayda cəmi bir dəfə xüsusi məşğələlər görmələri effektiv olmayıb. Xeyli müəllim, ümumiyyətlə, bu kurslardan yararlana bilməyib. Onların yardımçı müəllimlərlə münasibətlərində problemlər yaşanır. Eyni zamanda, həmin yardımçı müəllimlərin xüsusi təhsil prosesinə nəzərəçarpan töhfələri müşahidə olunmayıb.

Mütəxəssislərin fikrincə, bu istiqamətdə ən ciddi problemlərdən biri dərin əqli məhdudiyyətləri olan uşaqların ümumi, inteqrasiya olunmuş təhsil prosesinə cəlb edilməsidir. Belə bir yanaşma var ki, bu qrup uşaqlar üçün xüsusi təhsilli məktəblər bərpa olunmalıdır. Ancaq bu tələb və təkliflər dövlət tərəfindən qəbul edilmir, çünki hesab olunur ki, xüsusi məktəblərin fəaliyyəti “şəxsiyyətin aşağılanması”dır və təhsil prosesinə heç bir xeyir vermir. Bütün bu problemlər onunla nəticələnir ki, məhdudiyyətləri olan xeyli sayda uşaq, ümumiyyətlə, təhsil görmür.

Kütləvi məktəblərin yuxarı siniflərində məhdudiyyətləri olan uşaqların təhsil almaları daha çətin olur. Belə ki, adi uşaqlardan bəzilərinin valideynləri buna qarşı çıxırlar. Müəllimlərin lazımi hazırlıqlar görməmələri səbəbindən onların belə uşaqlara təhsilin məqsədlərini aydın şəkildə çatdırmaları istiqamətində əngəllər mövcuddur.

Ümumi şəkildə qeyd etmək olar ki, İtaliyada geniş anlamda inklüziv təhsilin tətbiq edilməsinə nail olunub. Ancaq nəticələrə dair sistemli işlənilmiş məlumatlar olmadığına görə inteqrasiyalı təhsilin effektivliyi barədə rəy vermək çətindir.


AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ · AZƏRBAYCAN MÜƏLLİMİ · Bank of Baku

**“Azərbaycan müəllimi” qəzeti və Bank of Baku ölkənin ümumi təhsil müəssisələrində çalışan müəllimlər üçün “Azərbaycan Xalq Cümhuriyyəti və təhsil” mövzusunda yazı müsabiqəsi**

**ELAN EDİR**

Yazılar 20 aprel 2018-ci il tarixdən 20 may 2018-ci il tarixinədək muallim@edu.gov.az elektron poçt ünvanında qəbul ediləcək. Təqdim olunan yazılar tanınmış pedaqoq, alim və Cümhuriyyət dövrü tədqiqatçılarından ibarət münsiflər heyəti tərəfindən qiymətləndiriləcək. Təşkilat Komitəsi tərəfindən keçiriləcək təntənəli mərasimdə qaliblərin pul və diplomlarla mükafatlandırılması nəzərdə tutulur.

**MÜSABİQƏNİN ƏSAS ŞƏRTLƏRİ:**

- İştirakçılar təqdim olunan yazıların sonunda zəruri məlumatları (ad, soyad, əlaqə telefonu, çalışdığı müəssisənin adı və tutduğu vəzifə) qeyd etməlidirlər.
- Hər iştirakçı müsabiqəyə bir yazı təqdim edə bilər.
- Yazının həcmi 8-10 min işarədən ibarət olmalıdır.
- Yazının əvvəlində müsabiqə üçün hazırlandığı qeyd edilməlidir.

Əlaqə üçün: (012) 538-51-41

**TƏŞKİLAT KOMİTƏSİ**


## Valideynlər və şagirdlərin nəzərinə!

**Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən “Gənc istedadlar” liseyi 2018-2019-cu tədris ilində Azərbaycan və rus bölmələrinin V sinfinə istedadlı şagirdlərin qəbulu ilə əlaqədar müsabiqə**

**ELAN EDİR:**

**Tələb olunan sənədlər:**

*- ərizə;*

*- doğum haqqında şəhadətnamənin surəti;*

*- IV sinfi bitirməsi haqqında arayış;*

*- 3x4 sm ölçüdə 2 ədəd fotoşəkil.*

Sənədlər mayın 1-dən 25-dək liseyin binasında qəbul edilir.

Qəbul imtahanı 10 iyun 2018-ci il tarixdə, saat 10.00-da ana dili və riyaziyyat fənləri üzrə test üsulu ilə aparılacaq.

Liseydə dərslər BDU-nun aparıcı professor-müəllim heyəti və təcrübəli müəllimlər tərəfindən tədris olunur. Liseyə qəbul olan şagirdlər BDU-nun laboratoriyalarından, kitabxanasından, idman zallarından istifadə edirlər.

Əlavə məlumat üçün aşağıdakı ünvana müraciət etmək olar.

**Ünvan:** Bakı şəhəri,

Əhməd Cəmil küçəsi, 41[a]

**Əlaqə telefonu:** (012) 510-83-76.

## Vətənpərvərlik mövzusunda “dəyirmi masa” keçirilib

**Yusif ƏLİYEV**

Bakının Nəsimi rayonundakı 151 nömrəli tam orta məktəbdə “Yaddan çıxmaz Qarabağ” adlı vətənpərvərlik mövzusunda “dəyirmi masa” keçirilib.

Məktəbdən verilən məlumata görə, tədbiri tədris ocağının Azərbaycan dili və ədəbiyyat müəllimi, Əməkdar müəllim Solmaz Süleymanova açaraq Qarabağın tarixi haqqında ətraflı məlumat verib. Sonra Qarabağın keçmişi, ərazisi, əhalisi, mədəni irsi, yeraltı və yerüstü sərvətləri haqqında şagirdlərin topladıqları ətraflı məlumatlar təqdim olunub.

Məktəblilər Qarabağın füsunkar təbiətini - dişgöynədən bulaqlarını, yaşıl ormanlarını tərənnüm edən şeirlər, mahnılar səsləndiriblər. Onların ifasında Qarabağ müharibəsini - aprel döyüşlərini təsvir edən kiçik dialoqlar, səhnəciklər “dəyirmi masa” iştirakçıları tərəfindən maraqla qarşılanıb. Bir daha əminlik ifadə olunub ki, Qarabağ Azərbaycanın əzəli, əbədi torpağıdır.



Məktəblilərdən Fidan Əliyeva, Lamiyə Dadaşova, Xuraman Həsənova, Aytac Süleymanlı, Abid Məmmədov, İlahə Afşari, Rəsul Məmmədov, Nihad Əlizadə, Kamil Qasımov və digərlərinin tədbirdəki çıxışları maraq doğurub.

Tədbirin sonunda məktəbin direktoru Kifayət Tanrıverdiyeva və təşkilatçı müavin Mahirə Qafarova maraqlı tədbir hazırladıqları üçün Azərbaycan dili və ədəbiyyat müəllimi, Əməkdar müəllim Solmaz Süleymanovaya və şagirdlərə təşəkkürlərini bildiriblər.

## “Əsgərə xatirə kitabı” layihəsi çərçivəsində tədbir

**Rəşad ZİYADOV**

Xırdalan şəhər 2 nömrəli tam orta məktəbdə “Əsgərə xatirə kitabı” layihəsi çərçivəsində tədbir keçirilib.

Layihənin məqsədi məktəblilərin vətənpərvərlik mövzusunda olan kitabları toplayaraq cəbhə bölgəsində xidmət edən əsgərlərə göndərməsidir.

Tədbir Füzuli rayonu ərazisində yerləşən N saylı hərbi hissənin və Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə baş tutub.



Layihə çərçivəsində aprel döyüşlərinin iştirakçıları Xırdalan şəhərinə səfər ediblər. Xırdalan şəhər 2 nömrəli tam orta məktəbin şagirdləri ilə görüşən döyüşçülər “Əsgərə xatirə kitabı” aksiyasında iştirak edən məktəblilərə təşəkkür məktubları veriblər.

Daha sonra hərbiçilər məktəbin akt zalında təşkil olunan tədbirə qatılıblar.

Məktəbin direktoru Ədalət Camalova bildirib ki, hərbi-vətənpərvərlik tərbiyəsinin faktlar və zəngin əyani vasitələr əsasında aparılması tərbiyə işinin bu mühüm sahəsi üzrə maraqlı forma və üsulları da meydana çıxarıb, məktəblərlə hərbi hissələr arasında əlaqələrin yaradılması daha da gücləndirilib.

Füzulidə yerləşən N saylı hərbi hissənin polkovnik-leytenantı Seymur Habibullahov vurğulayıb ki, şagirdlərdə hərbi-vətənpərvərlik hisslərinin artırılmasında hərbiçilərlə canlı ünsiyyət mühüm rol oynayır.

Görüşdə şagirdlərin ifasında vətənə, xalqa, dövlət atributlarına aid vətənpərvərlik mövzusunda şeir və mahnılar səsləndirilib, milli rəqs nümunələri nümayiş olunub.

Tədbirin sonunda şagirdlər hərbi hissəyə 2400 kitab hədiyyə göndəriblər.